

## Azərbaycanla Gürcüstan arasında bir sıra sazişlər imzalandı

*Dekabrın 15-də Tbilisidə Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib. Nazirlər Kabinetinin Mətbuat xidmətindən GUnikal"a verilən xəbərə görə, Baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvilinin sədrliyi ilə keçirilən iclasda...*

Səh.8


# UNIKAL

№47 (2132) 16 dekabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Emin Əmrullayevin diplom açıqlamasının ilginc pərdəarxası

### Nazir külli miqdarda saxta diplom verən ali məktəblərin olduğunu açıqladı; bundan sonra nə baş verəcək?

*Yola salmaq üzrə olduğumuz həftə təhsil naziri Emin Əmrullayev sensasion açıqlama ilə çıxış edib. Milli Məclisin Elm və təhsil komitəsində "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Həqiqət budur ki, qurumlar öz nüfuzunu qorumursa, kimsə qoruya bilməz" deyib və ardınca da, obrazlı desək, "bombanı partladıb". Əmrullayev bildirib ki, külli miqdarda saxta diplom verən ali məktəblərimiz var: "Bunun faktları da var. Biz diplomu sübut edə bilmədiyimiz üçün deyirik ki, gəl sertifikasiyadan keç, onda işləyə bilərsən. Bizim etdiyimiz ali məktəbləri yoxlamaq deyil".*

Səh.8




## Sülh prosesi Şuşa-Xankəndi yolunda dalana dirənib

Səh.9

## "Dövləti soyub-talamaqla deyil, qurmaqla məşğul olmalıyıq"



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, gündəmdə olan məsələlərdən - Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin, ekologiya fəallarının Şuşa-Laçın yolunda keçirdiyi etiraz aksiyasından, Naxçıvan Muxtar Respublikasının vəzifəli şəxslərinin həbslərindən...*

Səh.4

## "Qazın Azərbaycan tərəfindən kəsilməsi ilə bağlı açıqlamalar feykdir"



*Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərdə təbii qazın Azərbaycan tərəfindən kəsilməsi ilə bağlı açıqlamalar feykdir. "Unikal" apa-ya istinadən xəbər verir ki, bu barədə xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib.*

Səh.2

## "Xaricdə təhsil alanlar ölkəyə mənfi xüsusiyyətlər gətirir"



*"Kim Avropada təhsillə bağlı diplom gətirirsə, bütün strukturlar qaça-qaça onu işə götürürlər". "Unikal" xəbər verir ki, bunu deputat Siyavuş Novruzov "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.*

Səh.5

# Şou-biznesdə 2022-ci ilin ən çox müzakirə olunan hadisələri



***Ötən illərdə olduğu kimi 2022-ci ildə şou-biznesdə qalmaqalsız, səs-küysüz ötüşməyib.***

"Unikal" xəbər verir ki, axşam.az geridə qoyduğumuz bir il ərzində yaşanan ən səs-küylü hadisələri təqdim edir:

İlin ən səs-küylü hadisəsindən biri müğənni Manaf Ağayevlə bağlı olub. Sənətçi işğaldan azad edilmiş torpaqlara qanunsuz səfər edib və həmin videonu sosial şəbəkədə yayıb. Sənətçi həbs edilərək 15 sutka azadlıqdan məhrum olunmuşdu.

Bir müddət əvvəl həbs xəbəri ilə gündəmə gələn tanınmışlardan biri isə meyxanaçı Rəşad Dağlı olub. Rəşad qonşusu İskəndər Mehtiyevi qətlə yetirməkdə təqsirləndirilir. Meyxanaçı barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Rəqqasə Fatimə Fətəliyeva ilə şair Nazilə Səfərli arasında böyük qalmaqal yaşanıb. Nazilənin sosial şəbəkədə yazdığı statusa əsəbiləşən Fatimə instaqramda canlı yayım açaraq onun ünvanına təhqirlər səsləndirib. Nəticədə Nazilə Fatiməni məhkəməyə verib. Hazırda isə məhkəmə prosesi davam edir.

İlin səs-küylü hadisələrindən digəri də elə Fatimənin ad günündə yaşanmışdı. Fatimə onu təbrik etməyə gələn Əməkdar artist Mətanət İsgəndərlinin keçmiş gəlini Cananəni məclisdən qovub. Bu isə İsgəndərlinin istəyi ilə atılan addım olub.

İlin ən səs-küylü qalmaqalı müğənni Natavan Həbibi ilə "Soy" prodakşının rəhbəri Oqtay Əliyev arasında yaşanıb. Belə ki, Əliyev ifaçının verilişlərə qatılmaq üçün qonorar istəməsini tənqid edib. Onun bu tənqidinə müğənnilər Xatirə İslam, Kərim Abbasov və reper Elşad Xose də qoşulub.

Müğənni Elnarə Xəlilova ilə stilist Elnur Həsənov da bu il qalmaqal yaşayanlardan olub. Buna səbəb Elnurun Elnarənin geyimlərini tənqid etməsi olub. Hətta Xəlilova Əməkdar artist Lalə Məmmədovaya da söz ataraq, onun TRT-də bir verilişə qatılarkən geyiminin açıqsaçıqlığa görə dəyişdirilməsi olduğunu yazıb. Buna səbəb isə Lalənin proqram zamanı stili üzərində Elnurun çalışması olub.

2022-ci ildə gözlənilməz hadisədən biri də müğənnilər Sabir Əliyevlə Elvin Mirzəzadənin efirdə davası olub. "Səhərin səsi" proqramında yer alan ifaçıların sözləri çəp gəlib. Canlı yayımı yarımçıq qoyan ifaçılar kulis arxasında əlbəyaxa dava edib. Ətrafdakıların köməkliyi ilə ayrılan sənətçilərdən Sabir proqrama qayıtsa da, Elvin gedib.

"Xəzər TV"də yayımlanan "Təsir dairəsi" verilişində ekspertlər - vəkil Şəfiqə Nağıyevayla jurnalist-şair Anar Vəziroğlu arasında dava düşüb. A.Vəziroğlu Ş.Nağıyevaya yaxınlaşaraq onunla mübahisə edib, ona qarşı nalayiq ifadələr işlədib.Vəkil A.Vəziroğlunun üstünə su atıb. Daha sonra canlı yayım zamanı Vəziroğlu Ş.Nağıyevanın üzərinə su atıb.

Aparıcı Azər Zahidlə aktrisa Pərvin Abıyeva arasında bu il TikTok-da oyun üstündə bir neçə dəfə qalmaqal yaşanıb. Bir neçə gün əvvəl isə Azər Pərvini TikTok-da canlı yayımda təhqir ediv və səhifəsini bağlatdırıb. Daha sonra Pərvinin profili yenidən açılıb.

Rusiyanın Soçi şəhərində keçirilən KVN komandalarının 33-cü Beynəlxalq Festivalında ("KiViN-2022") Azərbaycanı təmsil edən "Şuşa" komandası adını "Buta" olaraq dəyişib. Bu hadisə isə böyük qalmaqala və etiraza səbəb olub. Komandanın rəhbəri, ssenarist və prodüser Müşfiq Abbasov tənqid atəşinə tutulub. Ermənilərin istəyi ilə belə bir addım atılması və bundan sonra da Müşviqin yarışı tərk etmədən, orada qalması xoş qarşılanmayıb.

2022-ci ildə yaşanan qalmaqallardan biri də Rusiyada məşhurlaşan azərbaycanlı müğənni Nəvai Bəkirovla bağlı olub. Belə ki, klublardan birində mahnı oxuyan ifaçı Bakının ünvanına qeyri-etik ifadə işlədib. Həmin hadisədən sonra Əməkdar artist Xəyyam Nisanov Nəvaini tənqid edib. Bir neçə gün əvvəl isə Nəvai Xəyyamın ünvanına sərt sözlər deyib.

Xalq artisti Flora Kərimova ilə müğənni Afət Fərmanqızı arasındakı qalmaqal məhkəməyə gedib çatıb. Bu il də məhkəmə prosesi yekunlaşmayıb. Kərimova Afətlə bağlı dəfələrlə paylaşım edərək, onun polis tərəfindən axtarışa verildiyini söyləyib.



# "Tünzalə duet təklif etsə, imtina edərəm" - Əbdül Xalid

***Müğənni Əbdül Xalid Xalq artisti Tünzalə Ağayeva barədə açıqlaması ilə diqqət çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, ifaçı "Səhərin səsi" verilişində qonaq olarkən aparıcı Samir Bayramlının "Tünzalə Ağayeva sənə duet təklif etsə, oxumayacaqsan?" sualına belə cavab verib:

"Yox. Tünzalə mənim əzizimdir, hər zaman uğuruma sevinən insandır... Yeri gələndə "Yox" deyərəm, burada nə var ki?", - deyə, bildirib.

# Türklər Aygün Kazımova ilə bağlı süjet hazırladı

***Türkiyənin "MegaSinn" yutub kanalı Xalq artisti Aygün Kazımova ilə bağlı video çarx hazırlayıb.***



Dünyanın məşhur sənət adamlarının həyat hekayələri ilə bağlı süjetlər hazırlayan sosial şəbəkə kanalında müğənninin sənət yolu, şəxsi həyatı ilə bağlı məlumatlar yer alıb.

"Orduya qatılıb, müharibəyə gedən, mahnıları ilə dünyaya səs salan Azərbaycanın Divası" başlığı ilə yayımlanan videoda Kazımovanın dünyaca məşhur reper Snup Doqla işbirliyindən, bu layihə üçün evini satmasından bəhs edilib.

Eyni zamanda Pop Divanın türkiyəli ifaçı Bülənt Ərsoyla aralarında yaşanan qalmaqala da toxunulub.

# "Şükür edirəm ki, şöhrət məni dəyişmədi" - Məleykə Əsədova



***"Ürəyimdəki hönkürtü səsini batırmaq üçün gülmək istəyirəm... Nə qədər gülsəm də, gözlərimdə həyat yorğunluğum bilinir".***

"Unikal" olay-a istinadən xəbər verir ki, bu sözləri Xalq artisti Məleykə Əsədova instaqram hesabında bildirib.

Sənətçi fikirlərinə belə davam edib: "Çox şükür edirəm ki, Allahım mənə bu yükü illərdir zərif çiyinlərimdə təkbaşına daşıya bilmək üçün güc verib. Şükür edirəm ki, şöhrət mənim insanlığımı, əqidəmi dəyişmədi".



# Azərbaycanla Gürcüstan arasında bir sıra sazişlər imzalandı

***Dekabrın 15-də Tbilisidə Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib.***

Nazirlər Kabinetinin Mətbuat xidmətindən GUnikal"a verilən xəbərə görə, Baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvilinin sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri iştirak ediblər.

Baş nazir Ə.Əsədov açılış nitqində qeyd edib ki, bu il Azərbaycan ilə Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olur. Vurğulanıb ki, bu illər ərzində Azərbaycan ilə Gürcüstan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Siyasi, iqtisadi, investisiya, enerji, nəqliyyat, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin vacibliyi qeyd edilib.

Regionlararası əməkdaşlıqdan danışan Ə.Əsədov deyib: "Son zamanlar ölkələrimizin ayrı-ayrı şəhər və rayonları arasında təmaslar daha da intensivləşmişdir ki, bu da təbii olaraq Azərbaycan-Gürcüstan əlaqələrinin hərtərəfli inkişafına çox müsbət təsir göstərir".

Diqqətə çatdırılıb ki, ötən dövrdə və cari illərdə iki ölkənin bir sıra şəhər və rayonları, o cümlədən Bakı və Tbilisi arasında qardaşlaşma haqqında sazişlər imzalanıb. Bu müsbət tendensiya nəzərə alınaraq Azərbaycan-Gürcüstan regionlararası forumunun keçirilməsi ilə bağlı təşəbbüs irəli sürüldü.

Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin artdığı qeyd edildi, hər iki ölkənin böyük potensialı nəzərə alınaraq, qarşılıqlı ticarətin daha da genişləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər investisiya əməkdaşlığının artırılmasının vacibliyini vurğulayıblar.

Enerji sektoru ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirilib. Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi layihələri həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına böyük töhfə verir.

Vurğulanıb ki, ənənəvi olaraq yükdaşımaların davamlı şəkildə artdığı nəqliyyat və tranzit sahəsinə böyük diqqət yetirilir.

Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti xüsusi qeyd edilib. "Dəmir yolunun tam gücü ilə işə salınması ölkələrimizin daha da çiçəklənməsinə və iqtisadi tərəqqisinə xidmət edəcək", - deyə Azərbaycanın Baş naziri bildirib.

Həmçinin Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) aktuallığı vurğulanlb, bu marşruta əlavə həcmdə yüklərin cəlb edilməsi üçün birgə səylərin artırılmasının vacibliyi diqqətə çatdırılıb.

Bu kontekstdə Ə.Əsədov Zəngəzur dəhlizinin Orta Dəhlizin bir hissəsi kimi əhəmiyyətini vurğulayıb. "Bu dəhliz regional nəqliyyat kommunikasiyalarının və bağlantılarının şaxələndirilməsini təmin edəcək", - deyə Azərbaycanın Baş naziri əlavə etdi.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin bütün istiqamətləri üzrə inkişaf perspektivləri geniş müzakirə olunub.

İclasın yekununda Baş nazirlər Əli Əsədov və İrakli Qaribaşvili Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasının Protokolunu imzalayıblar.

Müvafiq dövlət strukturlarının rəhbərləri kənd təsərrüfatı, ekologiya və kiçik və orta biznes sahələrində əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalayıblar.

# Emin Əmrullayevin diplom açıqlamasının ilginc pərdəarxası

## Nazir külli miqdarda saxta diplom verən ali məktəblərin olduğunu açıqladı; bundan sonra nə baş verəcək?

***Yola salmaq üzrə olduğumuz həftə təhsil naziri Emin Əmrullayev sensasion açıqlama ilə çıxış edib. Milli Məclisin Elm və təhsil komitəsində "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Həqiqət budur ki, qurumlar öz nüfuzunu qorumursa, kimsə qoruya bilməz" deyib və ardınca da, obrazlı desək, "bombanı partladıb".***

Əmrullayev bildirib ki, külli miqdarda saxta diplom verən ali məktəblərimiz var: "Bunun faktları da var. Biz diplomu sübut edə bilmədiyimiz üçün deyirik ki, gəl sertifikasiyadan keç, onda işləyə bilərsən. Bizim etdiyimiz ali məktəbləri yoxlamaq deyil".



Nazirin açıqlaması, yuxarıda da vurğuladığımız kimi, kifayət qədər sensasiya xarakteri daşıyır. Əmrullayevin dediklərindən belə aydın olur ki, ölkədəki bir sıra universitetlər bu və ya digər şəkildə "saxta diplom biznesi"nin parçasına çevriliblər. Əlbəttə, arzu edərdik ki, Emin müəllim bununla bağlı daha konkret danışardı, ünvanları dəqiq göstərərdi. Lakin istənilən halda onun dediklərindən Azərbaycanda saxta diplom məsələsinin kifayət qədər aktual olduğu bir daha aydınlaşır.

Qeyd edək ki, ölkəmizdə bu mövzu uzun illərdir müzakirə mövzusudur və zaman-zaman həmin mövzu ilə bağlı ağlasığmaz faktlar ortaya çıxır. Məsələn, 2019-cu ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş əməliyyat məlumatları ilə əlaqədar, müvafiq məhkəmə qərarları əsasında Gəncə və İsmayıllı şəhərlərində keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzindən kənar ali və orta-ixtisas müəssisələrinə qəbul olmaq hüququ verən, habelə bu növ təhsil müəssisələrində təhsilin tamamlanmasını təsdiq edən rəsmi sənədlərin saxtalaşdırılması, qanunsuz hazırlaması və satışı ilə məşğul olan bir qrup Azərbaycan Respublikası vətəndaşının qanunsuz əməlləri ifşa olunmuşdu. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən mediaya verilən məlumatda kifayət qədər ilginc detallar yer alırdı. Belə ki, həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri ilə Gəncə Dövlət Universitetinin Fiziki tərbiyə və çağırışa qədərki mülki müdafiə kafedrasının müdiri vəzifəsində işləmiş Məmmədov Ələddin Hətəm oğlu və həmin kafedrada laborant vəzifəsində işləyən Qasımov Elmir Müzadil oğlunun adıçəkilən ali məktəbdəki xidməti otaqlarında aparılmış axtarış zamanı 37 nəfər ayrı-ayrı şəxslərin adlarına müxtəlif ali və orta-texniki təhsil müəssisələrinin diplomları və sair sənədləri aşkar olunaraq götürülmüşdü. Və ya sözügedən cinayətkar qrupun üzvü olan İmamquliyev Azər Vaqif oğlunun Gəncə şəhərində yaşadığı ünvanda aparılmış axtarış zamanı Təhsil Nazirliyi, Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi, Gəncə, Qazax və Naxçıvan filialları, həmin İnstitutun Ümumi şöbəsi, Gəncə şəhəri Təsərrüfat Hesablı Məişət Xidməti Kolleci, Göyçay Dövlət İdarəetmə və Texnalogiyalar kolleci, Azərbaycan Kooperasiya Universiteti, Mingəçevir şəhər kadr hazırlığı və ixtisasartırma məktəbi, Gəncə Elm-Təhsil Mərkəzi, Yeyinti Sənaye İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, o cümlədən M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyat İnstitutunun saxta möhürləri aşkarlanmışdı.

Maraqlıdır, bu cinayətkar qruplaşma üzvləri adları çəkilən universitetlərin saxta diplomlarını nəyə arxalanaraq, yaxud ümid edərək hazırlaya bilərdilər? Üstəlik, qrup üzvlərindən bəzilərinin elə ali məktəb əməkdaşları, hətta birinin kafedra müdiri olması hansı qaranlıq məqamlardan xəbər verirdi? İstisna deyil ki, Əmrullayevin bəhs etdiyimiz açıqlamasından sonra "saxta diplomlar" mövzusu ətrafında yeni müzakirələrin, araşdırmaların şahidi olacağıq.

Eyni zamanda ümid edək ki, qarşıdakı günlərdə Təhsil Nazirliyindən sözügedən məsələ ilə bağlı daha detallı, ətraflı bilgilər almaq mümkün olacaq. Eyni zamanda külli miqdarda saxta diplom verən ali məktəblərin hansılar olduğu, bu saxta diplom "alverinin" konkret olaraq hansı dönəmləri əhatə etdiyi, günümüzdə də belə hallara rastlanıb-rastlanmadığı ilə bağlı yaranan suallara cavab tapılacaq. Üstəlik, saxta diplomlarla bağlı hüquqi məsuliyyət məsələsinin aktuallaşa, nəticədə bunun kimlər üçünsə ciddi başağrısına çevrilə biləcəyi də istisna edilməməlidir.

***Sənan Mirzə***

# Sülh prosesi Şuşa-Xankəndi yolunda dalana dirənib

***Qarabağ iqtisadi zonasında faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşa-Xankəndi yolunda Azərbaycanın ictimai fəallarının dinc etiraz aksiyasının davam etməsinə baxmayaraq, Rusiya sülhməramlı qüvvələri geri addım atmır. Daha doğrusu, hərbi kontingentin rəhbərliyi aksiyada səslənən tələblərə cavab verməkdən yayınır. Lakin mövcud durumdan narazı olan Azərbaycan tərəfinin nümayəndələri aksiyaların daha da genişləndirilməsində israrlıdır.***



Etiraz aksiyasının iştirakçıları bu gün yeni tələb irəli sürüblər. Aksiya iştirakçıları Azərbaycanın suveren torpaqlarında Azərbaycanın bütün dövlət qurumlarının, o cümlədən Daxili İşlər Nazirliyinin (DİN), Dövlət Sərhəd Xidmətinin (DSX), Dövlət Gömrük Komitəsinin (DGK) nəzarətinin bərpa edilməsini və onların ayrıca nəzarət-buraxılış məntəqələrinin yaradılmasını tələb edirlər. Aksiya iştirakçıları həmçinin, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəaları tam icra olunmadığına görə Laçın istiqamətində Ermənistanla sərhəddə DSX-nin və DGK-nin ayrıca postlarının olması tələbini irəli sürüblər.

İştirakçılar bildiriblər ki, hazırda ermənilərin yaşadığı ərazilərə Rusiya sülhməramlıları ilə yanaşı, həm də Azərbaycanın dövlət orqanları nəzarət etməlidirlər. Onlar mina terroruna son qoymaq, Ermənistan ərazisindən Azərbaycana silah-sursat, hərbçilərin daşınması, milli sərvətlərimizin ölkədən çıxarılması və digər qanunsuz əməllər üçün istifadə olunan Laçın yoluna nəzarət edilməsini və bu cinayətlərə, qanunsuzluğa son qoyulmasını tələb edirlər. Aksiya iştirakçıları Ermənistanın müharibə cinayətləri üçün istifadə etdiyi infrastrukturun, o cümlədən Laçın yolunun fəaliyyətinə imkan verməyəcək və məsələ müsbət həllini tapana kimi yoldan çəkilməyəcəklər.

Bəzi siyasi şərhçilər hesab edirlər ki, Rusiya sülhməramlılarının etiraz aksiyasının dağılması üçün xəbərdarlıq edə bilər. Çünki Moskva hazırda baş verən proseslərdən narahatdır. Əgər hər hansı formada kobud müdaxilə olarsa, bu, Rusiyanın əleyhinə işləyəcək. O fikirlər də səslənir ki, Azərbaycan prosesi Zəngəzur dəhlizinin açılmasına kimi davam etdirmək iradəsini daha qabarıq göstərdiyi üçün qarşı tərəfin qıcığı artır. Bu mənada, Azərbaycan tərəfinin Qarabağda ermənilərin reinteqrasiyası prosesinə başlaması məqsədəuyğun addım kimi görünür. Hesab olunur ki, zaman keçdikcə, Rusiya öz maraqlarını təmin etmək və bölgədəki fəaliyyət ömrünü uzatmaq üçün Qarabağda separatizmi körükləyəcək və guya xilaskar obrazını davam etdirmək üçün imkanlar yaradacaq.



**Tofiq Zülfüqarov: "Sülhməramlı missiya siyasi funksiyaları daşıya və hər hansı siyasi prosesdə iştirak edə bilməzlər"**



**Elxan Şahinoğlu: "Ermənistan rəsmiləri son proseslərlə bağlı yalvarmaqla yanaşı, Moskvanı təhdid də edir"**

Hər halda, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın bu məsələ ilə bağlı açıqlaması bunu deməyə əsas verir. O bildirib ki, Rusiya Laçın dəhlizinin bağlanmasından narahatdır, orada tamhüquqlu nəqliyyat əlaqələrinin yaxın gələcəkdə bərpa olunacağını gözləyir. "Biz Laçın dəhlizinin bağlanmasından narahatıq, buna tərəflər arasında filiz yataqlarının işlənməsi ilə bağlı fikir ayrılıqları səbəb olub. Rusiya Müdafiə Nazirliyi və Rusiya sülhməramlı kontingenti bütün bu günlər ərzində vəziyyətin deeskalasiyası üçün fəal iş aparır. Biz yaxın gələcəkdə tam hüquqlu nəqliyyat əlaqələrini bərpa etməyi səbirsizliklə gözləyirik", - Zaxarova brifinqdə deyib.

Zaxarovanın açıqlamasından elə anlaşılır ki, guya orada hansısa başqa bir ölkənin qüvvələri yolu kəsib və bu da Rusiyanı narahat edir. Halbuki, Rusiya sülhməramlı kontingenti Kremlinin tapşırığından kənar hər hansı bir addım ata bilməz. Qarabağda ermənilərin qanunsuz hərəkətləri və onlara qarşı sərgilənən "ayı xidməti" də məhz Moxkvadakı müəyyən dairələrdən tapşırılıb.

Bu məsələlərlə bağlı "Unikal"a açıqlama verən Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Azərbaycan ictimaiyyətində sülhməramlılara münasibət fərqlidir:

"Sülhməramlıların Qarabağa gəlişi Azərbaycanın dəvəti əsasında baş verib. Birincisi, biz başa düşməliyik ki, sülhməramlıların orada vəzifəsi və statusu nədir? Biz onlardan nəyi tələb etməli olduğumuzu dəqiqləşdirməliyik. Sülhməramlıların missiyası iki hissədən, yəni, rus və türkiyəli hərbçilərdən ibarətdir. Onların vəzifələri tam şəkildə müəyyən olunmayıb. Sülhməramlı missiya hərbi-texniki funksiyaları daşıyır. O, siyasi funksiyaları daşıya bilməz, çünki dünyanın heç bir yerində sülhməramlılar vasitəçi ola bilməzlər və hər hansı siyasi prosesdə iştirak edə bilməzlər.

Adətən, münaqişədə olan iki tərəf danışıqlar vasitəsilə bu məsələni həll edirlər, amma bizim vəziyyətdə iki tərəf yoxdur, çünki Azərbaycan tərəfi sadəcə olaraq Ermənistanın işğal etdiyi torpaqları azad edib. Artıq orada münaqişə yoxdur. Sadəcə inteqrasiya prosesi gedir. Biz sülhməramlıları bu prosesdə yardımçı alət kimi istifadə etməliyik.

Onlar sadəcə təhlükəsizliyi təmin edən bir qurum kimi bu proseslərdə iştirak etməlidirlər. Özü də bu, müvəqqəti xarakter daşımalıdır. Onların burada cəmi 5 illik səlahiyyətləri var", - deyə sabiq nazir qeyd edib.

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistan hakimiyyəti bəyənmədiyi Kremlə yalvarır ki, "yolun açılmasını təmin edin". Onun fikrincə, Ermənistan parlamentinin spikeri Alen Simonyan yalvarmaqla yanaşı, Moskvanı təhdid də edir: "Simonyan deyib ki, ABŞ Dövlət Departamenti və Fransa XİN Azərbaycandan yolun açılmasını istəyiblər, növbə Rusiyanındır: "Ümid edirəm ki, müttəfiqimiz bu dəfə bizi məyus etməz". Yəni demək istəyib ki, Kreml son illər Ermənistanı və erməniləri çox məyus edib, heç olmazsa bu dəfə fərqli hərəkət etsin. Alen Simonyan daha sonra absurd və xəstə xəyallarını səsləndirməyə başlayıb: "Rusiyanın sülh missiyasına alternativ təhlükəsizlik variantları barədə düşünməliyik. ATƏT-in Minsk Qrupunun 12 ölkəsinin missiyasını Dağlıq Qarabağa göndərmək lazımdır". Bu Alen Simonyanın və digər erməni rəsmilərin cəmiyyətlərini sakitləşdirmək məqsədilə səsləndirdikləri açıqlamalardır. Özləri də anlayır ki, Azərbaycan heç zaman "alternativ missiya", "yeni təhlükəsizlik tədbirləri" və "ATƏT-in missiyası" kimi təklifləri qəbul etməyəcək".

E.Şahinoğlu onu da diqqətə çatdırıb ki, monitorinqə icazə verilməyəcəyi halda Ermənistanla Qarabağı birləşdirən yol bağlı qalacaq. Onun fikrincə, belə olan halda müxtəlif ssenariləri, o cümlədən qarşı tərəfin hansı təxribatlara əl atacağını proqnozlaşdırmaq məcburiyyətindəyik: "Bunlardan biri erməni lobbisinin müharibə günlərində olduğu kimi bir neçə ölkədə Azərbaycan səfirlikləri qarşısında növbəti təxribatlara hazırlıq planları ola bilər. Fransa və ABŞ-dakı səfirliklərimizin təhlükəsizlik tədbirlərinin artırılmasına ehtiyac yarana bilər.

Moskva Xocalı soyqırımından sonra bölgədə müharibənin genişlənəcəyi təhlükəsinə görə Qarabağdakı mənfur 366 hərbi briqadanı bölgədən çıxarmağa qərar verdi. O zaman hadisəni yerindəcə izləyən rusiyalı jurnalistlərdən biri hərbi briqadaya komandanlıq edənlərin və onların xanımlarının maşınlarında pul və zinnət əşyaları daşımalarının şahidi olmuş və bunu qələmə almışdı. Qarabağdakı rusiyalı hərbçilər iki yolla varlanırdılar. Birincisi, rusiyalı hərbçilər erməni separatçılarla birgə işğal etdikləri ərazilərdə azərbaycanlıların evlərini yağmalayırdılar, ikincisi separatçılar onlara verilən dəstəyə görə rusiyalı zabitlərə dünyadakı erməni lobbisindən aldıqları pulları bölüşürdülər. Kim zəmanət verə bilər ki, erməni separatçıları yenə eyni taktikadan istifadə etmirlər? Separatçılar erməni lobbisindən aldıqları pulu rusiyalı hərbi kontingentin rəhbərliyi və zabitləri ilə bölüşür, Azərbaycana aid yataqların qanunsuz istismarından əldə edilən gəlirdən onlara pay verirlər. Azərbaycanlı məmurların yataqlarda monitorinq aparmasına yaradılan əngəlin səbəblərindən biri də budur. Rusiya Ukraynada işğal etdikləri ərazilərdə taxılı yağmaladığı kimi, hərbçiləri də Azərbaycan ərazisində yataqlarımızın qanunsuz istismarından qazanır".

***Murad İbrahimli***

# Prezident Kubanıçbek Ömüralıyevi qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Kubanıçbek Ömüralıyevi Türk Dövlətləri Təşkilatının Baş katibi seçilməsi münasibətilə təbrik etdi, ona təşkilatın üzv dövlətləri arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətindəki işində uğurlar arzulayıb və əminliyini bildirib ki, o, Təşkilat çərçivəsində sıx əməkdaşlığın həyata keçirilməsində səylərini əsirgəməyəcək.

Türk Dövlətləri Təşkilatının fəaliyyətinə toxunan Prezident İlham Əliyev Təşkilatın beynəlxalq səviyyədə önəminin artdığını məmnunluqla qeyd edib, bunun üzv və müşahidəçi dövlətlərin beynəlxalq nüfuzunun və iqtisadi potensialının artmasına xidmət etdiyini bildirib, bu baxımdan ötən ay Təşkilatın Səmərqənddə keçirilən IX Zirvə Görüşünün əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı Kubanıçbek Ömüralıyevin Türk Dövlətləri Təşkilatının Baş katibi kimi azərbaycanlı həmkarları ilə sıx təmasda olacağına əminliyini bildirib.

Xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən qonaq TDT-ni yaradan dövlətlər sırasında ilk ölkə olaraq Azərbaycana səfər etməsindən məmnunluğunu bildirib və Təşkilatın fəaliyyətinin güclənməsində ölkəmizin fəal rolunu xüsusi vurğulayıb.

Türk Dövlətləri Təşkilatının Baş katibi vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi və ərazilərimizin işğaldan azad edilməsi təkcə ölkəmiz üçün deyil, bütün türk dünyası üçün böyük önəm daşıyır. Kubanıçbek Ömüralıyev üzv dövlətlərin dil və mədəniyyət baxımından ümumi köklərə malik olduğunu qeyd edərək əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməcəyini bildirib.

Söhbət zamanı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Əli Əsədov Gürcüstan Prezidenti ilə görüşdü

***Tbilisidə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 15-də Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.***



Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Prezidentinə çatdırıb. Bildirilib ki, Azərbaycan-Gürcüstan münasibətlərinin geniş gündəliyi var. İki ölkə arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın olduğu vurğulanıb.

Azərbaycan Prezidentinin cari ilin oktyabrında Gürcüstana səfərinin əhəmiyyəti qeyd edilib.

Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Tbilisidə keçirilən 9-cu iclasının önəmi qeyd edilib.

Görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri ətrafında da fikir mübadiləsi aparılıb.

# Rusiyadan Bəxtiyar Ersayın Azərbaycandakı təyinatına münasibət

***Bu gün Rusiya XİN-in rəsmi sözçüsü Mariya Zaxarovanın həftəlik brifinqində erməni jurnalist Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı Xüsusi Komandanlıq Qrupunun komandanı general-polkovnik Bəxtiyar Ersayın Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənovun müşaviri təyin olunmasına dair təxribat xarakterli sual verib.***

Jurnalist Zaxarovaya "Nəyə görə Rusiya bəzi hallarda postsovet ölkələrinin NATO ilə əməkdaşlığına mənfi reaksiya verdiyi halda, digər hallarda bu əməkdaşlığa göz yummağa üstünlük verir?" sualını ünvanlayıb.

Zaxarova erməni jurnalistin bu məsələ ilə bağlı iradını qəbul etmədiyini deyib: "Mən sizinlə razılaşmıram, mən tək Azərbaycanda deyil, Ermənistan da daxil olmaqla digər qonşu ölkələrdə də xarici ölkə vətəndaşı olan müşavirlər görürəm. Hər bir ölkənin öz tərəfdaşları ilə hərbi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirməklə bağlı suveren hüququ



var. Lakin bununla belə, bu üçüncü ölkələrə qarşı yönəldilməməli və Cənubi Qafqazda yaranmış qüvvələr balansını pozmamalıdır. Biz bu tezisləri regiondakı tərəfdaşlarımıza çatdırırıq".

# 6 hakim intizam məsuliyyətinə cəlb olundu



***Birinci instansiya məhkəmələrinin 6 hakimi intizam məsuliyyətinə cəlb olunub.***

Bu barədə "Unikal"a Ədliyyə Nazirliyindən məlumat verilib. Məhkəmə-Hüquq Şurasının iclasında qanunvericiliyin tələblərinin pozulmasına, vətəndaşların haqlı narazılığını doğuran nöqsanlara görə apellyasiya məhkəməsinin 3, birinci instansiya məhkəmələrinin isə 6 hakimi intizam məsuliyyətinə cəlb olunub, digər 2 hakim barədə intizam icraatı başlanılıb.

# "Ermənistan MN-nin yaydığı məlumat yalandır" - DSX

Dekabrın 15-i saat 01:10-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonu Kolluqışlaq və Rəzdərə yaşayış məntəqələri istiqamətində yerləşən bölmələrinin guya qarşı tərəfin Qafan rayonunun Kilsəkənd yaşayış məntəqəsi istiqamətindəki mövqelərinə atəş açması barədə Ermənistan Müdafiə Nazirliyinin yaydığı




məlumat həqiqətə uyğun deyildir.

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzi məlumat yayıb.

"Bu yalan məlumatı qəti olaraq təkzib edir və bu dezinformasiyanın Ermənistan Müdafiə Nazirliyinin növbəti təxribatı olduğunu bildiririk", DSX-dən bildirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[N]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Koronavirusa yoluxanların sayı artdı

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 115 yeni yoluxma faktı qeydə alınıb, 48 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, xəstəlikdən ölən olmayıb.

# "Qazın Azərbaycan tərəfindən kəsilməsi ilə bağlı açıqlamalar feykdir" - Ceyhun Bayramov



***Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərdə təbii qazın Azərbaycan tərəfindən kəsilməsi ilə bağlı açıqlamalar feykdir.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, bu barədə xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib.

O, "Azəriqaz"ın bununla bağlı açıqlama yaydığını xatırladıb.

"Problem varsa, araşdırılmalı və qarşısı alınmalıdır. Azərbaycan tərəfi problem yaratmayıb. Hava şəraiti sərt keçən digər ərazilərimizdə də qaz təchizatı ilə bağlı problem yaşanıb. Bu, yeni hal deyil. Əgər yerli əhali ilə dövlət qurumları arasında əlaqə olsa idi, məsələ vaxtında həll olunardı. İndi onlar dramatizmi artırmaq üçün Azərbaycan tərəfi ilə ünsiyyətdən yayınırlar",




# 45 nəfər minaya düşərək həlak olub

***Vətən müharibəsindən sonra ümumilikdə 276 nəfər minaya düşüb, onlardan 123 nəfər mülki şəxs, 153 nəfər hərbi qulluqçudur.***

"Unikal" xəbər verir ki, mina partlaması nəticəsində 45 nəfər həlak olub (35 nəfər mülki şəxs, 10-u hərbi qulluqçu), 231 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb (88 nəfər mülki şəxs, 143 nəfər hərbi qulluqçu).

# İlham Əliyev forum iştirakçılarına müraciət etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən "Müasir idarəetməyə gedən yol: dayanıqlı və innovativ dövlət xidmətlərinə doğru" beynəlxalq forumun iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal"ın məlumatına görə, mətndə deyilir: "Hörmətli forum iştirakçıları! Sizi - "Müasir idarəetməyə gedən yol: dayanıqlı və innovativ dövlət xidmətlərinə doğru" mövzusunda keçirilən beynəlxalq forumun iştirakçılarını səmimi-qəlbdən salamlayır, forum çərçivəsində səmərəli müzakirələr və faydalı əməkdaşlıq arzulayıram.

Özünəməxsus inkişaf modeli ilə tanınan Azərbaycan, idarəetmə və əhaliyə dövlət xidmətləri göstərilməsi sahəsində də effektiv və çoxşaxəli islahatlar həyata keçirərək, konseptual yeniliklərin müəllifi olmuşdur.

Belə unikal təşəbbüslərdən biri "ASAN xidmət" konsepsiyasıdır. Bununla da dövlət orqanları tərəfindən xidmətlər göstərilməsində vətəndaş məmnunluğunun və şəffaflığın təmin edilməsi, korrupsiya hallarının qarşısının alınması, innovativ yanaşmaların və müasir texnologiyaların tətbiq edilməsi, dövlət qulluqçusu - vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılması ideyalarını rəhbər tutan yeni xidmət modeli yaradılmış və bu model özünü uğurla doğrultmuşdur.

Bu uğur həm ölkə vətəndaşlarının müsbət rəyində, həm də beynəlxalq səviyyədə göstərilən maraq və münasibətdə özünü təcəssüm etdirir. "ASAN xidmət" təcrübəsi artıq bir sıra ölkələrdə tətbiq edilir. 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət xidmətləri mükafatına, 2019-cu ildə isə Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülən "ASAN xidmət" Azərbaycan brendinə çevrilmişdir. "Dövlət Xidmətləri Göstərən Qurumların ASAN Beynəlxalq Assosiasiyası" yaradılmış, ICESCO-ya üzv olan dövlətlərdə və Afrika ölkələrində dövlət xidmətləri sahəsində müvafiq beynəlxalq təşkilatlarla birgə ASAN mükafatları təsis olunmuşdur.

BMT-nin İnsan Hüquqları Şurası "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə qəbul edərək, beynəlxalq təşkilatları "ASAN xidmət"in uğurlu təcrübəsini təşviq etməyə çağırmışdır.

2022-ci ilin dekabr ayında ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasının 10-cu ilini qeyd edəcəyik. Bu gün "ASAN xidmət" mərkəzlərində - vahid məkanda müxtəlif dövlət qurumları, həmçinin özəl şirkətlər tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir.

Fəaliyyəti dövründə "ASAN xidmət" 60 milyona yaxın müraciət üzrə dövlət xidmətləri göstərilməsini təmin etmişdir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 % təşkil etmişdir.

"ASAN xidmət" konsepsiyasının gətirdiyi digər bir yenilik xidmətin fəaliyyətə başladığı ilk gündən könüllülərin cəlb edilməsi olmuşdur. Könüllülər öz müsbət enerjiləri və müasir dünyagörüşləri ilə vətəndaşlara xidmət sahəsinə yeni nəfəs gətirmiş, beləliklə də Azərbaycanda könüllülük hərəkatı geniş vüsət almış və hazırda ictimai həyatın bütün sahələrində öz səmərəsini göstərməkdədir.

Ümidvaram ki, forumda aparılacaq geniş fikir mübadiləsi və məhsuldar müzakirələr dayanıqlı və innovativ dövlət xidmətlərinə nail olunmasına öz töhfəsini verəcəkdir".

# Arzu Rəhimov Ağstafada vətəndaşları qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2022-ci ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov dekabrın 15-də Ağstafada Gədəbəy, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.***



"Unikal" xəbər verir ki, qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstəsi qoyulub.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 14 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladının xidmət yerinin müəyyənləşdirilməsi, veteran adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb olunma, eləcə də digər məsələlər ilə bağlı olub.

Qəbul zamanı vətəndaşların müraciətlərinin həlli ilə bağlı mövcud qanunvericiliyin tələbləri izah edilib, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Məktəblərdə müəllimlərin 84,3 faizi qadındır

***Təhsil və elm sahəsində qadınların rolu artmaqdadır. Azərbaycanda savadlılıq səviyyəsinin göstəricisi 100%-ə yaxınlaşır.***



Bu, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə məlumatında əksini tapıb.

Qeyd olunub ki, magistrlərin 54, fəlsəfə doktorlarının 51, elmlər doktorlarının 46 və elmi tədqiqatçıların 56%-i qadınlardır.

Qeyd edilib ki, təhsilin bütün səviyyələrində qadınlar kişilərlə bərabər fəal iştirak edir və uğurlar əldə edirlər. Azərbaycanda orta ixtisas təhsili və ali təhsil müəssisələrində qadınların idarəetmədə təmsilçiliyi kişilərə nisbətən üstündür.

Orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrinin professor-müəllim heyətinin say bölgüsündə qadınlar kişilərə nisbətən üstünlük təşkil edir. Qadınların say göstəriciləri ali təhsil müəssisələrində 55,74%, orta ixtisas müəssisələrində 80,75%, peşə təhsili müəssisələrində 60,78%-dir.

Həmçinin respublikanın ümumtəhsil məktəblərində 3642 direktordan 1352-si, 4677 direktor müavinindən 2753-ü, 143 902 müəllimdən 121 405-i qadındır. Başqa sözlə, ümumtəhsil məktəblərində müəllimlərin 84,3 faizi qadındır.

# Rusiya XİN-dən Laçın dəhlizi ilə bağlı açıqlama

***Rusiya Laçın dəhlizinin bağlanmasından narahatdır, orada tamhüquqlu nəqliyyat əlaqələrinin yaxın gələcəkdə bərpa olunacağını gözləyir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib.

"Biz Laçın dəhlizinin bağlanmasından narahatıq, buna tərəflər arasında filiz yataqlarının işlənməsi ilə bağlı fikir ayrılıqları səbəb olub. Rusiya Müdafiə Nazirliyi və Rusiya sülhməramlı kontingenti bütün bu günlər ərzində vəziyyətin deeskalasiyası üçün fəal iş aparır. Biz yaxın gələcəkdə tam hüquqlu nəqliyyat əlaqələrini bərpa etməyi səbirsizliklə gözləyirik", - Zaxarova brifinqdə deyib.

***Ağarza Elçinoğlu***

# Türkiyə Naxçıvana yeni Baş konsul göndərdi

***Türkiyə Naxçıvan Muxtar Respublikasına yeni Baş konsul təyin edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Naxçıvandakı Baş konsulluğu açıqlama yayıb. Bildirilib ki, yeni konsul Asip Kaya bu gün fəaliyyətə başlayıb.

Əvvəlki konsul Mehmet Emin Kiraz dekabrın 1-də fəaliyyətini başa vurub.

# Ərdoğan Türkiyə-Rusiya-Suriya üçtərəfli görüşünün keçirilməsini təklif edib

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı Türkiyə, Rusiya və Suriya liderlərinin görüşünü keçirməyi təklif edib.***

Bu barədə Ərdoğan Türkmənistandan qayıdarkən jurnalistlərə müsahibəsində bildirib.

O, liderlərdən əvvəl isə müdafiə nazirlikləri, xarici işlər nazirlikləri və kəşfiyyat xidmətləri rəhbərlərinin görüşünü keçirməyi təklif edib.

"Türkiyə-Rusiya-Suriya üçtərəfli birliyinə dair addım atmaq istəyimizi Rusiya Prezidentinə bildirdim. Bunun üçün ilk növbədə kəşfiyyat xidmətlərimiz, daha sonra müdafiə nazirləri və xarici işlər nazirləri görüşməlidir. Onların görüşündən sonra liderlər olaraq bir araya gəlməyimizi təklif etdim. Cənab Putin müsbət reaksiya verdi. Beləliklə, biz bir sıra görüşlərə başlayacağıq", - Ərdoğan bildirib.



## "Təhsilin keyfiyyəti və müəllimin əməkhaqqı artmalıdır" - Tahir Mirkişili

***"Bu gün təhsil sahəsində iki mühüm sosial sifariş var. Birincisi, təhsilin keyfiyyəti, ikincisi isə müəllimin əməkhaqqı artmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

Komitə sədri bildirib ki, növbəti ilin dövlət büdcəsindən müəllimlərin əməkhaqlarının artırılması üçün 56 milyon manat, diaqnostikadan keçən müəllimlərin əməkhaqqının artırılması üçün isə 168 milyon manat ayrılması nəzərdə tutulur.

"Təhsilin keyfiyyətini artırmaq üçün nə etməliyik? Sertifikatlaşdırmanın keçirilməsi vacib qərardır. Bu proses məktəblərdə hökmən getməlidir. Bütövlükdə, bu gün şagirdlərin yaxşı təhsil alması və müəllimlərin əməkhaqqının artırılması üçün sertifikatlaşdırma aparılmalıdır".

## "Əgər direktorlar tapşırıqla təyin olunursa..." - Deputat

***"Dövlət regionlarda gözəl məktəblər tikib, amma təhsilin keyfiyyəti aşağı səviyyədədir".***



"Unikal" xəbər verir ki, bunu deputat Musa Qasımlı "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

Deputat bildirib ki, bu gün məktəb direktorlarının bir çoxu yerində deyil: "Əgər direktorlar tapşırıqla təyin olunursa, adını yaza bilmirsə, o məktəbdə təhsilin keyfiyyəti olmayacaq. İstəyiriksə təhsil keyfiyyəti sağlamlaşsın, biz sertifikasiya keçirməliyik. Öz peşəsini bilməyən şəxsi sinifə buraxmaq olmaz, uşaqları kor etmək olmaz. Təhsilə kənar adamların müdaxiləsi olmamalıdır".

# "Dövləti soyub-talamaqla deyil, qurmaqla məşğul olmalıyıq"

## Qabil Hüseynli: "İllərdir ki, dövlət büdcəsindən ayrılan vəsaiti mənimsəyib, onu varidata çevirib və dövlət quruculuğu işlərinə ciddi əngəl törədiblər"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, gündəmdə olan məsələlərdən - Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin, ekologiya fəallarının Şuşa-Laçın yolunda keçirdiyi etiraz aksiyasından, Naxçıvan Muxtar Respublikasının vəzifəli şəxslərinin həbslərindən və İran-Azərbaycan münasibətlərindən danışıb.***

***-Qabil müəllim, bir neçə gündür Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri və ekologiya fəalları Şuşa-Laçın yolunda etiraz aksiyası keçirirlər. Bu aksiyanın keçirilməsini necə qiymətləndirirsiz?***

-Aksiyanı yüksək qiymətləndirirəm. Orada iştirak edənləri ürəkdən alqışlayıram. Onlar xalqın və vətəndaş cəmiyyətinin nümayəndələridir. Həmin şəxslər öz qəlblərinin hökmü ilə, hakimiyyətin hər hansı bir təhriki olmadan bu aksiyanı başladıblar. Aksiyada ərazilərimizdə sülhməramlı qüvvələr adı altında fəaliyyət göstərən Rusiya silahlı qüvvələrinin bölmələrinin ərazidən çıxarılması, eləcə də Xankəndi və onun ətrafındakı separatçılara qarşı xalqın etirazını bildirmək əsas məsələ kimi durur. Rusiyanın sülhməramlı deyilən qüvvələrinin Azərbaycanın monitorinq qrupunun üzvlərini ərazilərə buraxmaqda köməklik göstərməməsi, ermənilərin mövqe sərgiləməsi xalqı daha da coşdurdu. Sülhməramlıların ərazilərdən çıxarılması məsələsi də gündəmə gəlib. Hazırda tək vətəndaş cəmiyyəti fəalları, ekoloji sahədə çalışan qeyri-hökumət təşkilatının nümayəndələri deyil, ictimaiyyət nümayəndələrinin geniş hissəsi - tələbələr, gənclər bu prosesə qatılıblar. Bunu ümumxalq etirazı kimi qəbul etmək olar. İnanırıq ki, xalqın bu mesajı hakimiyyət orqanlarına da təsir göstərəcək, onları müəyyən məqamda hərəkətə keçməyə vadar edəcək.

***-Bildiyiniz kimi, Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinq təxribat nəticəsində baş tutmayıb. Sülhməramlılarla Qarabağdakı qanunsuz erməni dəstələrinin birgə təxribatı buna imkan verməyib. Belə desək, sülhməramlılar təbii sərvətlərimizin talanmasına göz yumur. Onların bu işi görməzdən gəlməsinin səbəbi nədir?***

-Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov qızıl yataqlarının istismarından müəyyən komissiya alır. O, kriminal iş adamı olan Ruben Vardanyanla ortaqdır. Sülhməramlıların müəyyən zabit heyətinin də bu işdə birliyi var. Həmin ərazilərdə barbar formada Azərbaycanın faydalı qazıntı yataqları istismar edilir, onun xarici şirkətlərlə birlikdə ölkə ərazisindən çıxarılması prosesi gedir. Həmçinin, orada ekologiyanın pozulması halları da var. Həm vətəndaş, həm də qeyri-hökumət təşilatlarının üzvləri, o cümlədən, ictimaiyyət nümayəndələri belə bir özbaşınalıqla barışmadılar. Buna cavab olaraq etiraz aksiyasına başladılar. Artıq etiraz aksiyası genişlənib və tələblər konkretdir. Azərbaycanın monitorinq qrupu ərazilərə buraxılmalıdır. Bu məqsədə nail olunmayınca, oradakı etiraz aksiyası dayanmayacaq.

***-Dekabrın 13-də Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov həbs olunub. O, 212 milyon 361 min manat dövlət vəsaitinin mənimsənilməsində ittiham edilir. Bundan əvvəl də Naxçıvanda bir neçə vəzifəli şəxs həbs olunub. Necə düşünürsüz, muxtar respublikada həbslər davam edəcək?***

-Kimin günahı varsa, ədalət məhkəməsi və xalqın qarşısında cavab verməlidir. Gənc dövlətik, dövlət quruculuğu ilə məşğuluq. Dövləti soyub-talamaqla deyil, qurmaqla məşğul olmalıyıq. İllərdir ki, dövlət büdcəsindən ayrılan vəsaiti mənimsəyib, onu varidata çevirib və dövlət quruculuğu işlərinə ciddi əngəl törədiblər. Dövlət gec də olsa, bu proseslərə qarışıb və zənnimcə, günahkarlar layiq olduqları cəzanı alacaqlar. Naxçıvanı yağmalayan adamların hamısı məsuliyyətə cəlb edilməlidir. Onların taladıqları pulların hamısı geri qaytarılmalıdır. İşğaldan azad olunmuş ərazilərdə, eləcə də Naxçıvanda tikinti-quruculuq işləri üçün böyük vəsait lazımdır. Onlar bu vəsaiti oğurlayıblar. Bir sözlə, kimin günahı varsa, ciddi cəza alacaq.

***-Qarşıdakı illərdə Naxçıvan Muxtar Respublikasında hansı dəyişikliklər ola bilər?***

-Ciddi struktur dəyişiklikləri baş verəcək. Düşünürəm ki, Naxçıvanın statusuna yenidən baxılacaq. Orada lüzumsuz qurumlar var ki, onların fəaliyyətinin dayandırılmasına ciddi ehtiyac yaranıb. Bütövlükdə, idarəçilik sistemi dəyişəcək. Naxçıvanın muxtar respublika statusu ləğv ediləcək. Orada Azərbaycanın digər bölgələrində olduğu kimi icra hakimiyyəti və bələdiyyələr yaradılacaq. Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəsi olacaq. Yəni, idarəetmə qaydası konstitusiya deyil, qanunlar toplusu olacaq. Bu qanunlar Azərbaycanın bütün rayonlarında olduğu kimi, orada da eyni gücə və qüvvəyə malik olacaq. Yenilənmiş Naxçıvan Azərbaycanda gedən proseslərə örnək ola biləcək səviyyəyə qalxacaq.

***-İranda baş verən hadisələrlə bağlı fikirləriniz maraqlı olardı. Orada keçirilən aksiyalar müəyyən dövr nisbətən azalır sonra yenidən başlayır. Ümumiyyətlə, qarşıdakı zamanlarda İran-Azərbaycan münasibətlərinin necə dəyişəcəyini düşünürsüz?***



-İrandakı aksiyalarda səngimələr fasiləli xarakter daşıyır. Belə ki, aksiya səngiyir və sonra yeni qüvvə ilə çıxışlar başlayır. Bu çıxışlar molla rejimi devrilənə kimi davam edəcək. Məqsədə çatmaq üçün bütün vasitələrdən istifadə ediləcək. Nə qədər ki, molla rejimi var, ermənilərlə fəal əməkdaşlıq edirlər, bu baxımdan, mollakratiya ilə bizim münasibətlərimizin düzəlməsində yenilik olmayacaq. Yalnız molla rejimi hakimiyyətdən getdikdən sonra münasibətlərin yeni səhifəsinin açılması mümkün olacaq. İran düşmən dövlət kimi təbiətini göstərib. Biz də onların düşmən hərəkətlərinə qarşı adekvat cavab verməlişik. Bu, hələ bir az yumşaq cavabdır. Düşünürəm ki, İrandakı molla rejimi süquta doğru gedir. Orada yeni dünyəvi, demokratik bir quruluşun bərqərar olması üçün səylər artacaq, xalqlar və millətlər öz talelərinə sahibləncək.

***Anar Kəlbiyev***

# Səhiyyə Nazirliyi ilə TƏBİB-in dərman şirkətləri qarşısında çarəsizliyi

## Dövlət Gömrük Komitəsinin sədr əvəzi dərmanların qiymətindəki anormal bahalığın bu qurumla bağlı olmadığını dedi; elə isə müqəssir(lər)i harada axtaraq?

***Bir müddətdir ki, ölkə gündəmini məşğul edən əsas mövzulardan biri də dərmanlardır. Gah apteklərdə bir çox dərmanların qəhətə çıxması ilə bağlı şikayətlər, giley-güzarlar önə çıxır, gah da dərmanların qiymətləri narazılıq və müzakirə mövzusuna çevrildi.***

Elə yola salmaq üzrə olduğumuz həftə də istisna olmadı: Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Vahid Əhmədov bildirdi ki, Xalq şairi Ramiz Rövşənin oğlu Konyadan (Türkiyə - red.) dərmanı 4 manata alıb, burada həmin dərman 27-28 manatdır: "Fərq böyükdür. Başa düşürəm ki, yol xərci, digər xərclər var. Olsun iki dəfə baha. Yoxsa 7-8 dəfə baha ola bilməz axı! İnsanlar ərzağın bahalaşmasına elə də etiraz etmirlər, amma dərman elə bir şeydir ki, insanın sağlamlığı dərmandan asılıdır".



İclasda iştirak edən və deputatın iradlarına reaksiya verən Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov isə qeyd edib ki, dərman şirkətləri gətirdikləri dərmanların dərhal anbarlara aparılmasını istəyirlər: "Azərbaycanda dərmanların qiyməti ilə bağlı Tarif Şurası tərəfindən müəyyən olunan hədlər var. Əgər qiymət bu həddən artıqdırsa, o, başqa məsələ. Türkiyə ilə Azərbaycan arasında fərq isə ona görədir ki, onlar bir çox dərmanı özləri istehsal edir. Bundan başqa, Türkiyə Avropa İttifaqı ilə Gömrük ittifaqındadır. Ona görə də bunu dərman satışı ilə məşğul olan şirkətlərdən soruşmaq lazımdır. Lakin dərman dəyərinin artmasına gömrük orqanlarının heç bir təsiri yoxdur".

Beləliklə, DGK-nin sədr əvəzi rəsmi şəkildə bəyan etdi ki, dərmanların həddsiz baha olmasının səbəbini gömrük orqanında deyil, dərman şirkətlərində axtarmaq lazımdır!

Xatırladaq ki, bundan öncə Səhiyyə Nazirliyindən də mövzu ilə bağlı bildirilmişdi ki, dərmanların ölkəyə gətirilməsi ilə ayrı-ayrı özəl şirkətlər məşğuldur, bu, nazirliyə aid deyil.

Beləliklə, rəsmi qurumlar ölkədəki anormal dərman qiymətlərinin məsuliyyətini birmənalı şəkildə özəl sektorun üzərinə qoyur.

Onu da deyək ki, hələ sentyabr ayında bu dəfə Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitə sədri Əhliman Əmiraslanov sözügedən mövzuda iradlar səsləndirmişdi. O demişdi ki, əhalidən dərman vasitələri ilə bağlı xeyli narazılıqlar gəlir. Sitat: "Dərman preparatlarının qiyməti, keyfiyyəti və əldə olunması ilə bağlı xeyli problem var. Mən aidiyyəti qurumlarla bu məsələni müzakirə edəcəyəm və düşünürəm ki, payız sessiyasında dərmanların qiymətləri, keyfiyyəti və əldə olunması ilə bağlı da dinləmə keçirək. Qardaş Türkiyə ilə müqayisədə dərman qiymətlərində xeyli fərqlər var. Hesablama Palatası Səhiyyə Nazirliyində bu işlə məşğul olan qurumda artıq yoxlamalar keçirib və təklif edib ki, bununla bağlı bizim komitə ilə müzakirələr keçirsinlər. Dinləməyə apteklərin nümayəndələri, bu sahə ilə məşğul olan insanları çağırmalıyıq. İnsanların bu narazılıqları araşdırılmalıdır".

Bunu da qeyd etmək lazımdır ki, məlum bahalılığın günahını dərman şirkətlərində axtarmağın daha doğru olduğunu düşünən ekspertlər də az deyil. Lakin hətta onlar belə açıq şəkildə bildirirlər ki, ölkənin səhiyyə siyasətini həyata keçirən iki əsas qurum var - Səhiyyə Nazirliyi və TƏBİB. Qəribəlik ondadır ki, bu qurumlar özlərini məsuliyyətdən azad edirlər, hətta bir çox hallarda dolayı şəkildə, eyhamla da olsa məsuliyyəti bir-birlərinin üstünə atırlar. Belə olan təqdirdə hətta başlıca günahkar dərman şirkətləri olsa da, yalnız onları günahlandırmaq absurd görünür - elə isə səhiyyəyə məsul qurumların mövcudluğuna nə gərək var?!

Üstəlik, dövlətin səhiyyə siyasətini həyata keçirməli olan qurumların dərman şirkətləri qarşısında özlərini faktiki olaraq çarəsiz aparması hansı məntiqə sığır? Bu ağlasığmaz deyilsə, bəs nədir?!

Yeri gəlmişkən, dərman mövzusunda Səhiyyə Nazirliyi ilə TƏBİB-in izahı mümkünsüz münasibəti bu ilin əvvəllərində hakim partiyanın rəsmi orqanında da tənqid hədəfi olmuşdu. Sitat: "... Bakı sakinləri yaxınları üçün koronavirusa qarşı Azərbaycan həkimlərinin effektiv hesab etdiyi əksər dərmanların tapılmadığını və qara bazarda normadan çox baha qiymətə satıldığını deyirlər. Dərman çatışmazlığı ilə bağlı səslənən sualların cavabında Səhiyyə Nazirliyi bildirir ki, bu qurum dərman satışı ilə məşğul olmur.

Pandemiya dövründə dərman satışı da, müalicə işi də bir əldə toplansa, yaxşı olmazdımı? İnsanlar TƏBİB-lə Səhiyyə Nazirliyi arasında qaçdı-tutdu oynamazdılar..."

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

***Toğrul Əliyev***

# "Xaricdə təhsil alanlar ölkəyə mənfi xüsusiyyətlər gətirir" - Siyavuş Novruzov



***"Kim Avropada təhsillə bağlı diplom gətirirsə, bütün strukturlar qaça-qaça onu işə götürürlər".***

"Unikal" xəbər verir ki, bunu deputat Siyavuş Novruzov "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

O bildirib ki, Azərbaycanda 200 bal toplaya bilməyənlər xaricdə pul verib diplom alırlar, bütün strukturlar onları işə götürürlər ki, xaricdə təhsil alıblar: "Bəs bizim universiteti bitirənlər necə olsun? Çalışmalıyıq ki, öz kadrlarımızı yetişdirək, təhsili inkişaf etdirməliyik. Xaricdə təhsil alanlar ölkəyə qayıdanda özləri ilə yeni əqidə, psixologiya, adət-ənənə, mənfi xüsusiyyətlər gətirir. Biz öz dövlətçiliyimizi qoyumalıyıq".

# Sertifikasiyadan keçməyənlər necə müəllim olub?

***"Bu gün fənnini bilməyən müəllimlərin olduğunu dedik. Sertifikasiyadan keçməyən müəllimlər var. Problemə görə dövlət də məsuliyyət daşıyır. Bunlar necə məzun olublar? Onlar işə necə qəbul ediliblər? suallarına cavab verilməlidir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsində "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deputat Ceyhun Məmmədov deyib.

Deputat bildirib ki, problemin həlli üçün öncə təhsilin keyfiyyəti artırılmalıdır: "Yuxarı yaşda müəllimlər nəzərə alınmalıdır. Təkcə bilik yox, şəxsi keyfiyyətlər də nəzərə alınmalıdır. Kadr seçiminə həssaslıqla yanaşılmalıdır".

# Ombudsman beynəlxalq ictimaiyyətə müraciət etdi



***Ombudsman Səbinə Əliyeva Kəlbəcərdə baş vermiş mina partlayışı ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda piyada əleyhinə minanın partlaması nəticəsində 4-ü mülki şəxs, 4-ü hərbçi olmaqla, ümumilikdə 8 nəfərin Ermənistanın mina terrorunun növbəti qurbanlarına çevrildiyi qeyd olunub: "Belə ki, təmir işləri ilə məşğul olan mülki şəxslər minaya düşdükdən sonra onların təxliyəsi məqsədilə əraziyə gələn hərbçilər də minaya düşüb və onlardan biri aldığı xəsarətlərdən həlak olub.

30 ilə yaxın işğal müddətində Azərbaycan ərazilərində basdırılan minaların xəritələri haqqında dəqiq məlumatın verilməməsi, münaqişə bitdikdən sonra təxribatların davam etdirilməsi, işğaldan azad edilmiş ərazilərin yenidən minalarla çirkləndirilməsi və nəticədə mülki şəxslərin və hərbçilərin həyatına qəsd edən, onların əlilliyinə səbəb olan bu kimi cinayətkar əməlləri törətmiş Ermənistanın hərbi-siyasi rəhbərliyinin məsuliyyətə cəlb olunmasını tələb edir, beynəlxalq ictimaiyyəti bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq".

# Gömrük Komitəsi büdcəyə 5 milyard manat köçürüb

***Yanvar-noyabr aylarında Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmalar 5 milyard 89 milyon 591 min manat olub.***

Komitədən "Unikal"a verilən məlumata görə, on bir ayda gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 1 milyard 261 milyon 14 min manat, əlavə dəyər vergisi üzrə 3 milyard 621 milyon 416 min manat, aksizlər üzrə 149 milyon 815 min manat, yol vergisi üzrə isə 57 milyon 346 min manat təşkil edib.

# "4 müəllimdən biri minimal balı toplaya bilməyib" - Nazir



***"Sertifikasiya imtahanında 60 sual verilib, onlardan 50-si ibtidai sinfə aid suallardır".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev Milli Məclisin Elm və təhsil komitəsində "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

Nazirin sözlərinə görə, ibtidai sinif müəllimlərinin sertifikasiya imtahanına başlamaq boşuna deyildi: "Uşaqlar ilk biliklərə ibtidai sinifdə yiyələnir. Bu biliklərə yiyələnmə səviyyəsi də müəllimin öz fənnini bilməsindən asılıdır. Bu gün hər 4 müəllimdən 3-ü öz fənnindən minimal biliklərə sahibdir. Sertifikasiyadan sonra bizim ibtidai sinif müəllimləri arasında qross əməkhaqqımız 1000 manata yaxındır. Bu, çox yaxşı rəqəmdir. Pis xəbər odur ki, hər 4 müəllimdən biri öz fənnindən minimal balı toplaya bilməyib. 8787 (76 %) nəfər müəllim sertifikasiyadan keçib. Çox az sayda müəllimimiz var ki, imtahandan kəsilib. Artıq 10 ilə yaxındır ki, biz müəllimləri imtahanla işə qəbul edirik. Bizim imtahanla işə qəbul etdiyimiz müəllimlərdən biri yoxdur ki, bu imtahandan kəsilsin".

Nazir əlavə edib ki, əsas irad yaşlı müəllimlərlə bağlıdır. Sertifikasiyada 1653 müəllimin yaşı 60-dan yuxarı idi. O bildirib ki, əsasən bölgələrdə yaşlı müəllimlərin İKT bacarığı aşağıdır: "Amma uşağın qətiyyən günahı yoxdur ki, ona yaşlı müəllim dərs deyir. Onların gələcək həyatını İKT-siz təsəvvür etmək olmur. 25-29 yaşlı müəllimlərin arasında cəmi 3 nəfər 30-40 bal yığıb, əksəriyyət yüksək bal toplayıb. Yəni, gələn nəsil öz fənnini daha yaxşı bilir".

"Təhsilverənlərin settifikatlaşdırılmasını həm də əməkhaqqı islahatı kimi müzakirə etməliyik. Bu təkcə təhsilverənlərin keyfiyyətinin yüksəldilməsi islahatı deyil" - deyən Emin Əmrullayevin sözlərinə görə, tənqidlər hər zaman olur: "Başa düşməliyik ki, niyə problemlər var. Biz deyirik ki, hər il ikirəqəmli faizlərlə uşaqlar qəbul və buraxılış imtahanlarında bizim arzu etdiyimiz nəticəni götərmir. Bunun niyəsini tapmaq lazımdır. Biz 30 il ərzində ancaq nəticələr barəsində düşünmüşük. Uşaqlar bizim gələcəyimizdir. Ona görə də məsələnin mahiyyətinə varmağımızda böyük fayda var".

# "Direktorlar davamiyyətin pozulmasına şərait yaradırlar" - Deputat



***"Məktəb direktorları valideynlərlə əlbir olub 10-11-ci sinif şagirdlərinin məktəbə gəlməməsinə şərait yaradırlar".***

"Unikal" xəbər verir ki, bunu deputat Elşən Musayev "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

O bildirib ki, məktəb direktoru 10-11-ci sinif şagirdlərinin məktəbə gəlməməsinə şərait yaradırsa, burada nə sertifikat olursa olsun, mənası yoxdur: "Şagirdləri məktəblərə təşviq etmək lazımdır".

# Yevlaxda uşağı döyən polis işdən çıxarıldı

***2013-cü il təvəllüdlü Tunar Kamranlının Vüsal Hüseynov tərəfindən döyülməsi ilə bağlı müraciət üzrə Yevlax rayon prokurorluğunda araşdırma aparılıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, aparılmış araşdırma zamanı hadisə yerinə baxış keçirilib, videomüşahidə kameralarından görüntülər əldə edilib, Tunar Kamranlı və digər şəxslərin izahatları alınıb, məhkəmə tibbi ekspertizası təyin edilərək rəyi əldə olunub.

Baş Prokurorluğun təqdimatı əsasında Daxili İşlər nazirinin müvafiq əmri ilə Vüsal Hüseynov tutduğu vəzifədən azad edilib, həmçinin, onun barəsində İnzibati Xətalar Məcəlləsinin 157-ci (Döymə) maddəsinə əsasən inzibati icraat açılaraq toplanmış materialar baxılması üçün aidiyyəti üzrə Yevlax rayon Məhkəməsinə göndərilib.

# Hotellərin fantastik Yeni il qiymətləri açıqlandı

## Bəs Dövlət Turizm Agentliyinin rəhbərliyi bu qiymətlər barədə nə düşünür?

***Qarşıdan gələn Yeni il tətili günlərində Azərbaycanın turizm əhəmiyyətli regionlarında yerləşən hotellərin qiymətləri məlum olub. Bu qiymətləri gördükcə adamın gözü, obrazlı desək, kəlləsinə çıxır.***

Məsələn, Qusar rayonunda yerləşən "Şahdağ" hoteldə dekabrın 30-dan yanvarın 2-dək bütün yerlər bron edilib. Bayram günləri - dekabrın 30-31-i və yanvarın 1-i tarixlərinə 2 nəfərlik paketin qiyməti 1810 AZN-dir. Bura gündə 3 dəfə qidalanma və SPA xidmətləri daxildir. "Şahdağ" hotelin əvəzində müştərilərə "Zirvə" və ya "Qala" hotelləri təklif olunur. Lakin bu hotellərdə də bütün yerlər bron olunub. Bu hotellərdə qiymətlər 1630 manata qədər bahalaşıb.

"Tufandağ" hotelə gəlincə, burada bayram günləri üçün boş yer yoxdur. 2 nəfər üçün otağın günlük qiyməti 1396 AZN-dir. Dekabrın 31-dən 3 gecə isə 2 nəfər üçün 1693 AZN müəyyənləşib. Bura dekabrın 31-i şam yeməyi, digər günlər səhər yeməyi daxildir. VİP kotецlər isə 4316 manatadır.

"Quba Palace Hotel" də qiymətlər dekabrın 30-dan yanvarın 2-dək 1900 manatdır. Daha yüksək kateqoriya sayılan "family suit" otağın qiyməti isə 4000 min manatdır. "Basqal" hoteldə isə tətil günlərində 2 nəfər üçün 3 günlük paketin qiyməti 1950 AZN-dir. Bura dekabrın 31-i qala gecəsi, hoteldəki digər xidmətlər, o cümlədən SPA daxildir. Eyni günlər üçün "delux" nömrə 2110 AZN, "family suit" isə 3980 AZN-dir.

"Şamaxı Palace" hotelində eyni günlər üçün 1450 AZN, eyvanlı otaqda isə 1480 AZN-ə başa gələcək. Qiymətlər dekabrın 30, 31-i və yanvarın 1-də 2 nəfər üçün nəzərdə tutulub. Buna gündə 3 dəfə qidalanma, qala şam yeməyi, hovuz və sauna xidmətləri daxildir.

Göründüyü kimi, cəmi bir neçə günlük tətil üçün qiymətlər orta statistik azərbaycanlı üçün fantastik həddədir və əlçatmazdır. Eyni zamanda o da məlum olur ki, ölkənin turizm obyektlərində qiymətlərin həddən artıq yüksək olması ilə bağlı cəmiyyətin narazılıqları, medianın tənqidləri, mütəxəssislərin iradları heç nəyi dəyişməyib. Daha doğrusu, dəyişib, ancaq mənfiyə - bahalaşmaya doğru!

Ölkə turizminə xas bu anormal qiymət siyasəti qarşısında isə Dövlət Turizm Agentliyinin səssizliyini, susqunluğunu, hərəkətsizliyini anlamaq mümkün deyil. Hələ yay turizm dövrü ilə bağlı qiymətlərin ağlasığmaz dərəcədə yüksək olması barədə şikayətlərlə, giley-güzarla bağlı hazırladığımız materialda qeyd etmişdik ki, 2022-ci ildə Azərbaycana gələn hər 7 turistdən biri ölkədən narazı gedib. Ən çox narazılar arasında ərəb turistləri, avropalılar, hətta Rusiya və britaniyalılar da var. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yaymışdı.

Komitənin açıqladığı hesabata görə, 2022-ci ilin ilk 4 ayında xaricdən Azərbaycana 220 min turist gəlmişdi, onlardan 32,5 min nəfəri isə göstərilmiş xidmətləri qənaətbəxş saymışdı. Ümumilikdə narazı turistlərin sayı ümumi turist axınında orta hesabla 14,8% təşkil eləmişdi.

Doğrudur, müstəqil ekspertlər yuxarıdakı rəqəmlərin daha yüksək olduğuna şübhə etmirlər, lakin rəsmi rəqəmlər belə ölkəmizə gələn hər 7 nəfərdən birinin narazı qayıtdığını göstərir. Bu isə kifayət qədər yuxarı göstəricidir və narahatlıq doğurur. Yəni elə bir vəziyyət yaranıb ki, yalnız yerli vətəndaşlar deyil, xaricdən gələn turistlər belə Azərbaycanda yüksək qiymətlərdən, bunun qarşılığında isə aşağı xidmətdən gileylidirlər. Dövlət Turizm Agentliyi isə öz ampulasına sadiqdir: bütün bu nöqsanları, çatışmazlıqları, problemləri seyr etməklə kifayətlənir. Görünür, turizm mövsümlərindən, bayram tətillərindən daha çox qazanmaq istəyən yalnız hotellər, restoranlar, istirahət mərkəzləri deyil, həm də adıçəkilən qurumun özüdür.



Onu da deyək ki, ekspertlər xüsusilə builki yay turizm mövsümündəki biabırçılıqları adıçəkilən qurum üçün son xəbərdarlıq kimi qiymətləndirirdilər. Onların fikrincə, Agentlik yuxarıda sadalanan, eləcə də, toxunmadığımız çoxsaylı digər problemlərin həlli istiqamətində effektiv addımlar atmayacağı təqdirdə, başda sədr Fuad Nağıyev olmaqla qurum rəhbərliyi öz postları ilə vidalaşa bilərlər. Lakin belə görünür ki, Dövlət Turizm Agentliyində bu cür düşünmürlər. Ona görə də ölkənin turizm obyektlərinin anormal qiymət siyasətinə son qoymaq üçün hər hansı təşəbbüs göstərmək, addım atmaq fikrindən uzaqdırlar. Bundan kimin udub, kimin uduzacağını isə zaman göstərəcək. Odur ki gözləyək...

***Sənan Mirzə***

# Dövlət Sosial Müdafiə Fondunda yeni "həbs dalğası" gözlənilir

## Hesablama Palatasının bu qurumla bağlı Baş Prokurorluğa müraciətindən sonra nələr gözlənilir?

***Ötən həftə məlum oldu ki, Hesablama Palatası 24 rayon (şəhər) üzrə 51 nəfərə 20 aprel 2013-cü il tarixinə qədər pensiya təyin edilməklə 884 min manat məbləğində vəsait ödənilməsi halı, digər bölgələrdə eyni hal üzrə cinayət tərkibinin əlamətlərinin olma ehtimalını diqqətə alaraq kənar dövlət maliyyə nəzarətinin nəticələri barədə materialların Baş Prokurorluğa göndərilməsini qərara alıb.***

Bu barədə Palatadan verilən məlumatda qeyd edilirdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunda (DSMF) apardığı audit büdcədənkənar dövlət fondunun gəlir və xərc göstəricilərinin hesabatlarda doğru əks olunması, eləcə də publik hüquqi şəxs qismində vəsaitlərin idarəolunmasına dair fəaliyyətin (pensiya və müavinətlərin təyin edilməsi istisna olmaqla) hüquqi aktlara uyğunluğu vəziyyətini əhatə edib.Nəticədə isə ortaya kifayət qədər ciddi nöqsanlar çıxıb. Məsələn, aydınlaşıb ki, 2021-ci il üçün Fondun gəlir və xərc göstəriciləri cəmi məbləğ baxımından hesabatlarda düzgün əks etdirilsə də, ayrı-ayrı istiqamətlər üzrə bəzi uyğunsuzluqlar aşkar olunub. Belə ki, Fondun xəzinədarlıq vasitəsilə icra edilmiş gəlirləri və xərcləri barədə məlumatların üzləşdirilməsi ilə bağlı hüquqi aktlarda qeyd edilmiş tələblər tam təmin olunmayıb, bu isə sair daxilolmaların məbləğinin hesabatlarda 8,7% çox göstərilməsi ilə nəticələnib. Həmçinin, DSMF və İşsizlikdən Sığorta Fondu üzrə sair daxilolmaların məbləğinin düzgün uçota alınmaması, elektron informasiya bazalarının aidiyyəti qurumlar tərəfindən tam uyğunlaşdırılmaması və vahid formatın hazırlanması prosesinin yekunlaşdırılmaması hesablanmış faiz və maliyyə sanksiyaları üzrə vergi orqanlarının məlumatları ilə müqayisədə fərq məbləği formalaşdırıb.

Və ya: 2006-2016-cı illər üzrə 1 394 milyon manat vəsaitin sığortaolunanların hesabı ilə eyniləşdirilmədiyi müəyyən olunub, həmin məbləğ ötən il bir neçə dəfə azalsa da, ilin sonuna 274,6 milyon manat sığorta haqları sığortaedənlərin hesabat verməməsi səbəbindən sığortaolunanlar üzrə bölüşdürülməyib. Məlumatların müvafiq proqram təminatında real vaxt rejimində yüklənilməsi tam təmin edilməyib, bəzi hallarda isə bu iş gecikmələrlə həyata keçirilib nəticədə 2021-ci il ərzində 40,8 milyon manat sığorta haqqının sığortaolunanların fərdi şəxsi hesablarında əks etdirilməyib. Ödənilmiş sığorta haqları üzrə sığortaedənlərin natamam hesabat verməsi həmin vəsaitlərin sığortaolunanlar üzrə fərdi hesablarda qeydə alınmaması ilə nəticələnib ki, bu da, sığorta hadisəsinin baş verdiyi təqdirdə sığortaedən, sığortaolunan və sığortaçı arasında öhdəliklərin sərhədlərinin müəyyənləşdirilməsi və bu öhdəliklərin icrasına təsir göstərəcək risklər sırasına aid edilə bilər.

O da bildirilib ki, DSMF-nin büdcəsi barədə qanunun 5-ci maddəsi ilə dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqlarının və Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlər üzrə müəyyən edilmiş tənzimləməyə əməl olunmayıb, büdcə təşkilatlarından daxilolmaların proqnoz və icra göstəricilərinin artıqlaması ilə icra olunması fonunda 2021-ci ildə dövlət büdcəsindən ayrılmalı olan vəsait 6,8 dəfə çox azaldılıb.

Bundan başqa, xərclərin ayrı-ayrı istiqamətlər üzrə hesabatlarda doğru əks olunması ilə bağlı toplanmış audit sübutları ilə ümumilikdə istifadə edilmiş vəsaitlərin hesabatlarda doğru əks olunduğu müəyyənləşdirilmiş, bununla yanaşı proqnozların əsaslı şəkildə tərtib edilməməsi səbəbindən məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən 3 müavinət növü üzrə 18,9 mln. manat məbləğində vəsaitə əlavə tələbat yarandığı, 26 nəfər pensiyaçıya eyni zamanda 2 yerli orqanın əmək pensiyası ödənişin həyata keçirdiyi, eləcə də 6 nəfər pensiyaçının vəfatından sonrakı dövr üçün vəsait istifadə olunduğu aşkar olunub.

Bu sadalananlar Hesablama Palatasının aşkarladığı nöqsanların kiçik bir hissəsidir. Maraqlananlar internet üzərindən axtarış verərək həmin nöqsanlarla tamamilə yaxından tanış ola bilərlər. Lakin elə yuxarıda göstərilənlər belə DSMF-də bir çox işlərin qaydasında getmədiyini əminliklə söyləməyə əsas verir.




Qeyd edək ki, bu qurumla bağlı tənqidlər Fonda Səlim Müslümovun rəhbərlik etdiyi dövrdən etibarən alovlanmışdı. Müslümov 2002-ci ilin dekabrında DSMF sədri təyin edilmiş, bundan qısa müddət sonra DSMF yeyintilərlə bağlı medianın araşdırma və tənqid, cəmiyyətin isə şikayət və qınaq hədəfinə çevrilmişdi. Ardınca Səlim müəllim əmək və əhalinin sosail müdafiəsi naziri təyin olundu, adıçəkilən Fond isə çox keçmədən onun tabeliyinə verildi. Beləcə, Müslümovun DSMF üzərindən rüşvət və korrupsiya əməliyyatları davam etdi. Nəticədə Fondla bağlı giley-güzarlar, tənqidlər daha da gücləndi.

Eks nazirin vəzifəsindən kənarlaşdırılmasından sonra gözləntilər DSMF-də ciddi islahatların aparılacağı, onun öz fəaliyyətində şəffaflığı tam təmin edəcəyi yönündə idi.

Lakin Hesablama Palatasının ötən həftə açıqladığı nöqsanlardan belə aydın olur ki, bu qurumda hələ də bir sıra vəzifə sahibləri "köhnə hamam, köhnə tas" prinsipi ilə hərəkət edirlər. Bunu illər keçməsinə baxmayaraq, DSMF-də "Səlim Müslümov küləklərinin" əsməsi olaraq da dəyərləndirmək mümkündür.

Maraq doğuran isə aşkarlanan nöqsanların hüquqi müstəvidə necə qiymətləndiriləcəyidir.

Məsələ burasındadır ki, Hesablama Palatası Fondda kənar dövlət maliyyə nəzarətinin nəticələri barədə materialların Baş Prokurorluğa göndərilməsinə qərar verib. Həmin materiallar prokurorluqda araşdırıldıqdan sonra DSMF-nin müxtəlif vəzifəli şəxslərinin ciddi başağrısı yaşayacağını təxmin etmək mümkündür.

Hər bir halda Fondda çoxdan arzulanan və gözlənilən şəffaflığa nail olmaq üçün aşkarlanan nöqsanların hüquqi qiymət alması qaçılmaz görünür...

***Sənan Mirzə***



# Azərbaycan-Koreya hərbi əməkdaşlığı müzakirə edildi

***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Koreya Respublikasının Milli Assambleyasının üzvü Lii Hunseunqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, qonaqları salamlayan nazir Koreya ilə hərbi əməkdaşlıq çərçivəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirdiyini qeyd edib.

General-polkovnik Z.Həsənov erməni hərbi birləşmələri tərəfindən hər hansı hərbi zərurətin olmadığı halda insan tələfatı məqsədilə Kəlbəcər rayonunun Çıraq kəndində basdırdığı mina partlayışı nəticəsində bir hərbi qulluqçumuzun şəhid olması və 4-ü mülki vətəndaş olmaqla 7 nəfərin xəsarət alması ilə bağlı koreyalı nümayəndə heyətini məlumatlandırıb.

Görüşdə həmçinin hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# "Kənddən Şəhərə" Yeni il yarmarkaları bu tarixlərdə olacaq

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 17-30 dekabr tarixlərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə "Kənddən Şəhərə" Yeni il yarmarkaları təşkil olunacaq.***

Bu barədə "Unikal"a Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.

Yarmarkalar Bakı və Abşeron ərazisində baş tutacaq. Yarmarkalarda əvvəlcədən qeydiyyatdan keçmiş 50-ə yaxın regiondan 70-dən artıq fermer iştirak edəcək. Onlar 80-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

"Kənddən Şəhərə" Yeni il yarmarkasının təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və bayram ərəfəsində şəhər sakinlərinin kənd təsərrüfatı və qida məhsullarına olan tələbatlarını təbii məhsullarla dolğun şəkildə qarşılamaqdır.

Qeyd edək ki, "Kənddən Şəhərə" Yeni il yarmarkalarında iştirak tamamilə ödənişsizdir. Burada fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi, soyuducu və digər ləvazimat və avadanlıqlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edəcəklər. Məhsullarının daşınmasında çətinlik yaşayan fermerlərə isə təşkilatçı qurum tərəfindən loqistika dəstəyi göstəriləcək.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

"Kənddən Şəhərə" Yeni il yarmarkaları aşağıdakı ünvanlarda keçiriləcək:

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı)

Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# “Türk dünyasına açılan üfüq yolu” - Əhliman Əmiraslanov



***“Prezident İlham Əliyevin Türkmənistana səfəri, Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşünün təşkil edilməsi bütövlükdə Türk dünyası üçün çox ciddi hadisədir. Dekabrın 14-də Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının Türkmənbaşı şəhərində birgə görüşünün keçirilməsi və bir sıra vacib sahələrlə bağlı sazişlərin imzalanması üç ölkə arasında münasibətləri dərinləşdirməyə xidmət etməklə yanaşı, regional sabitliyə, rifaha xidmət göstərir”.***

Bu fikirləri Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, akademik Əhliman Əmiraslanov irəli sürüb. O bildirib ki, görüşdə üç ölkə arasında iqtisadi-ticari, gömrük, energetika, nəqliyyat, elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsini hədəfləyən sənədlər imzalanıb:

“Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlər ilə sıx bağlıdır. Tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. . Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir. Türkiyə ilə keçən il imzaladığımız Şuşa Bəyannaməsi münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə çatdırmışdır. 2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır. 44 günlük Vətən müharibəsində əldə olunmuş Zəfər nəticəsində torpaqlarımız Ermənistanın 30 illik işğalından azad edildi. Qarabağ münaqişəsi həll edildi və bu Qələbə regionda yeni nəqliyyat-kommunikasiya layihələri üçün əlverişli imkan yaratdı.

Birinci Üçtərəfli Zirvə Görüşündə imzalanan sənədlərdən də göründüyü kimi, Bakı, Ankara və Aşqabad arasında əməkdaşlıq münasibətləri yeni mərhələyə daxil olur və yeni razılaşmalar əlaqələrin daha da inkişaf etdirilməsi baxımından ciddi zəmin hazırlayır. Üç ölkənin birgə tərəfdaşlığı çox da uzaq olmayan perspektivdə “Transxəzər” qaz kəməri kimi böyük geoiqtisadi, geosiyasi lahiyələrin reallaşması imkanlarını da artırmaqla yanaşı Türk dünyası tarixində yeni bir səhifə açıb. Azərbaycan artıq Mərkəzi Asiya üçün öz enerji potensialının Türkiyə və Qərbə realizəsində mühüm tərəfdaşdır, həmçinin qardaş dövlətlərimizin siyasi və iqtisadi müstəqilliyində de-fakto zəmanətçi kimi çıxış edir. Zamanında Prezident İlham Əliyevin bütün manеələrə baxmayaraq böyük uzaqgörənliklə reallaşdırdığı transmilli layihələrin də əsl əhəmiyyəti məhz bu çətin məqamlarda bir daha üzə çıxdı”.

***Hüseyn***

# ATMU-da seminar keçirildi

***Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) ”Narkomaniyaya yox deyək” adlı növbəti seminar keçirilib.***



”Unikal” xəbər verir ki, Narkomanlığa və Narkotik Vasitələrinin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının əməkdaşı,təlimçi Vasif Quliyev tədbirin gedişatında gənclər arasında narkomaniya və pis vərdişlərdən yaranan fasadların qarşısının alınması yolları, narkomaniya və tütünə qarşı mübarizədə əhəmiyyətli bilinən maarifləndirmə tədbirlərinin təşkili, sağlam həyat tərzinin təbliği, informasiya qıtlığının aradan qaldırılmasının əhəmiyyəti və s. məsələlərə aydınlıq gətirib.

ATMU-da təşkil olunan ”Narkomaniyaya yox deyək”adlı seminara Universitetin”Karyera və kommunikasiya”şöbəsinin əməkdaşları və tələbələr qatılıb.

# Lütvəli Babayevin yeni vəzifə arzusu

## Sabiq icra başçısı hansı sahədə yüksək post tutmaq istəyir?

***Üç ildir işsiz olan sabiq icra başçısı Lütvəli Babayev yeni vəzifə arzusundadır. Əldə etdiyimiz məlumata görə, o, fəaliyyətini təhsil sahəsində davam etdirmək niyyətindədir. Belə ki, Babayev ali təhsil müəssisələrinin birində yüksək post tutmağa çalışır. Söhbət rektorluq, ən pis halda prorektorluq vəzifəsindən gedir.***

Qaynağımız onu da deyib ki, sabiq icra başçısının söz-ügedən niyyəti təsadüfi deyil. Məsələ burasındadır ki, 1959-cu ildə Zərdab rayonunun Qaravəlli kəndində anadan olan, orqanları ilə iş şöbəsinin müdiri olmuşdu. 2005-ci ilə qədər həmin vəzifədə işlədikdən sonra Babayev şəhər başçısı təyin olunmuşdu. Bu vəzifədə iki il işlədikdən sonra - 2007-ci ildə oradan Zərdaba təyinat almış, rayon icra hakimiyyətinin başçısı postunu tutmuşdu.

Beləliklə, 12 il boyunca Zərdab rayonuna başçılıq edən Babayev bu müddətdə olduqca mənfi reputasiya qazanmış, fəaliyyəti ilə yerli əhalidə böyük narazılıqlar yaratmışdı.

Əlbəttə ki, 60 yaşı ərəfəsində başçı postundan kənarlaşdırılan Lütvəli müəllimin ya-



Dövlət Pedaqoji İnstitutunu ümumi texniki fənlər müəllimi ixtisası ilə bitirən Babayev iş təcrübəsinə Mingəçevirdə zavod fəhləliyindən başlasa və 1981-1987-ci illərdə Azərenerji Tikinti Tresti Mənzil İstismar Sahəsində tərbiyəçi ştatında işləsə də sonradan müəllimliyə üz tutub. 1987-1990-cı illərdə Mingəçevirdə müəllim işləyib, 1993-cü ildə isə artıq şəhərdə məktəb direktoru idi. Və həmin vəzifədən Mingəçevir İcra Hakimiyyətində ümumi şöbənin müdiri vəzifəsinə təyinat almışdı. 1997-ci ilə qədər həmin vəzifədə çalışan Babayev necə olmuşdusa yenidən müəllimlik peşəsinə qayıtmışdı, San-Marino Universitetinin (bəli, bir vaxtlar Azərbaycanda bu adda komik universitet də var idi) Mingəçevir filialında müəllim işləməyə başlamışdı. İki il sonra yenidən şəhər İcra Hakimiyyətinə qayıtmış, bu dəfə Şəhər İcra Hakimiyyəti Başçısı Aparatında ərazi idarəetmə şlı kadr kimi yola salınmasından söhbət gedə bilməzdi. Çünki o heç pensiya yaşına da çatmamışdı. Deməli, korrupsiya da başda olmaqla bir çox neqativ əməllərindən şikayət olunan sabiq icra başçısı məhz qeyri-qənatbəxş fəaliyyətinin nəticəsi olaraq vəzifəsindən azad edilmişdi.

Qeyd edək ki, Babayevin başçı olduğu illərdə Zərdab rayonu ölkənin iqtisadi baxımdan ən geridə qalmış rayonları arasında yer alıb. Rayonda baxımsızlıq, təsərrüfatsızlıq baş alıb gedirdi. Yerli icra hakimiyyətinin fəaliyyətindən hamı narazı idi: sahibkarlar, şəhid ailələri, sıravi sakinlər...

Babayev, eyni zamanda, ən qalmaqallı və adı müxtəlif qanunsuzluqlarda hallanan icra hakimiyyəti başçılarından biri idi. O, hətta Mingəçevirin sabiq polis rəisi , polkovnik Ələsgər Bədəlovla publik qarşıdurmaya da girmişdi. Buna səbəb isə Lütvəli müəllimin qardaşı oğlunun Mingəçevirdə avtoxuliqanlığa görə saxlanılması idi. Babayev demişdi ki, həmin polis rəisi uzun müddətdən bəri davam edən ədavət üstündə onun qohumlarına qarşı şantaj xarakterli materiallar yayır. ”Lütfəli Babayev niyə ona qarşı qərəzli olduğumu deyir, bunu bilmirəm. Mən onun barəmdə söylədiklərini yalan hesab edirəm. Kimin kim olduğunu ölkə rəhbərliyi yaxşı bilir. Əgər yaxşı icra başçısı olsaydı, onu Mingəçevir kimi şəhərin rəhbərliyindən uzaqlaşdırmazdılar”, - polis rəisi də öz növbəsində bildirmişdi.

Lütvəli Babayevlə bağlı başqa məşhur qalmaqallardan biri isə keçmiş müavini Tofiq Abdullayev tərəfindən məhkəməyə verilməsi olmuşdu. 2013-cü ildə yaşanan həmin qalmaqal zamanı Tofiq Abdullayevin vəkili mediaya açıqlamasında bildirmişdi ki, müdafiə etdiyi şəxsin Lütvəli Babayevi məhkəməyə verməsinin səbəbi qanunsuz olaraq işdən çıxarılmasıdır. Özü “ideal” məmur olan Lütvəli Babayev onu 4 dəqiqə gecikdiyinə görə vəzifəsindən azad etmişdi...

Sabiq icra başçısının vəzifədən azad edildiyi 2019-cu ilin əvvəllərində isə Zərdabın keçmiş başçısının Bakıda tikinti biznesi haqda fakt ortaya çıxmışdı. Məlum olmuşdu ki, o, Binəqədi rayonunun 7-ci mikrorayon, Abay Kunanbayev küçəsində, 3123-cü məhəllədə 12 mərtəbəli bina tikib. Binanın sahəsi 10 min kvadrat metrə yaxındır və tikintisi icra başçısının oğlu Babəli Babazadənin adı ilə həyata keçirilib.

Onu da deyək ki, Lütvəli müəllimin bioqrafiyasında iqtisadiyyat üzrə fəlsəfə doktoru olduğu göstərilib. “Sənaye müəssisələrinin iqtisadi tənzimləyiciləri”, “Heydər Əliyev neft strategiyası əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmişdir”, “Mingəçevir şəhərinin sosial-iqtisadi inkişafı Proqramı (2005-2010 və 2015-ci illər)” və digər elmi əsərlərin və monoqrafiyaların müəllifidir. Lakin icra başçısı olarkən qazandığı mənfi reputasiyanı nəzərə alsaq çətin ki, nə keçmişdəki pedaqoji fəaliyyəti, nə də elmi yaradıcılığı Babayevin yenidən yüksək postlara təyinat almasına imkan versin...

***Toğrul Əliyev***

## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaş cəmiyyətinin gücü hüquqi dövlət quruculuğunun mühüm hissəsidir

### Billur Məmmədova: "Biz bu aksiyaya başlayanda bilirdik ki, vətəndaş cəmiyyəti institutlarının digər nümayəndələri bizi tək buraxmayacaq"



***Cəmiyyətin inkişafında vətəndaş cəmiyyəti institutlarının rolu danılmazdır. Vətəndaş cəmiyyətinin dəstəklənməsi, inkişafı hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biridir. Ölkəmizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini verir. Hər zaman cəmiyyətin inkişafı üçün çalışan QHT-lər lazım gəldikdə dövlət maraqlarından çıxış etməyi də unutmurlar.***

Artıq iki gündür ki, Laçın yolunda QHT nümayəndələri, ictimai fəalların birgə aksiyası keçirilir. Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq eko-fəalların, QHT nümayəndələrinin təşkil etdiyi aksiyanın məqsədi beynəlxalq ictimaiyyətin diqqətini torpaqlarımızda yeraltı sərvətlərin talanmasına çəkmək, bu ekoloji terroru dayandırmaqadır. QHT sədrlərinin, ekoaktivistlərin gecə saatlarında davam etdirdikləri aksiya cəmiyyət tərəfindən də dəstəklənir. Belə bir situasiyada vətəndaş cəmiyyəti institutlarının fəallığı təqdir olunur.

Hazırda Laçın yolunda aksiyada iştirak edən "Milli Ənənələrin Təbliği" İctimai Birliyinin sədri Büllur Məmmədova "Unikal"a açıqlamasında bildirib ki, QHT nümayəndələri bu aksiyaya 100 nəfərlik heyətlə gediblər. Amma artıq sayları 1000 nəfəri ötür: " Biz bu aksiyaya başlayanda bilirdik ki, vətəndaş cəmiyyəti institutlarının digər nümayəndələri bizi tək buraxmayacaq. Elə belə də oldu. Biz oraya 100 nəfərlə getmişdiksə, hazırda sayımız 1000 nəfəri ötüb. Vətəndaş cəmiyyəti institutları ekoloji terrora qarşı birləşiblər. Buradan da görünür ki, hər zaman cəmiyyətin inkişafı üçün çalışan QHT sektoru vətənimizin sərvətinin talanmasına göz yuma bilməzdi. Biz buraya əli silahsız gəlmişik. Qarşımızı tank, pulemyotla kəsən sülhməramlılar silahı bizə tuşlayıblar. Amma bu vətəndaş cəmiyyəti nümayəndələrini qorxutmur. Bizim nə silahımız var, nə tankımız. Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqları bu xalqın sərvətidir. Onun qanunsuzcasına istismar olunması yolverilməzdir. Biz dünyanın diqqətini bu ekoloji terrora çəkmək istəyirik".

B. Məmmədova bildirib ki, QHT sektorunun bu məsələdə fəallıq nümayiş etdirməsində qeyri-adi heç nə yoxdur: "Biz vətəndaş cəmiyyəti nümayəndələri olaraq üzərimizə düşən işi yerinə yetiririk. Heç kəs bizi buraya gəlməyə məcbur etməyib. Dünyanın hər yerində QHT-lər belə məsələlərdə aksiyalar təşkil etməklə beynəlxalq aləmin diqqətini problemə cəlb edirlər. Biz də ekoloji terror dayandırılmayanadək bu yoldan çəkinməyəcəyik".

B. Məmmədova onu da qeyd edib ki, düşmən mətbuatı onları seperatçı adlandırsa da, hər kəs onların vətəndaş cəmiyyəti təmsilçisi olduğunu çox yaxşı bilir: "Erməni mətbuatı bizim şəkillərimizi paylaşaraq bizi seperatçı kimi qələmə verir. Güya biz Laçın yolunu bağlamaqla Xankəndinə gedən təcili tibbi yardım avtomobilinə mane olub onu buraxmamışıq. Bu kökündən yalan məlumatdır. Əslində yolu bağlayan biz yox, sülhməramlılardır. Onlar üç maşını yan-yana saxlayaraq yolu kəsiblər. Bizim qurduğumuz çadırların yanından təcili yardım avtomobili çox rahatlıqla keçə bilərdi. Azərbaycan xalqı heç vaxt təcili yardım avtomobillərinin yolunu kəsməyib. Bu düşmən olsa belə. Bizim niyyətimiz yolu kəsmək, Xankəndində yaşayan sakinlərimizə mane olmaq deyil. QHT nümayəndələri, ekoaktivistlər, könüllülər ekoloji terroru dayandırmaq üçün Laçın yolunda çadır qurub. Bu QHT sektorunun gücüdür. Tələbimiz yerinə yetirilməyincə, bizim dövlət qurumlarının nümayəndələrinin monitorinq aparmasına icazə verilməyincə aksiyanı dayandırmayacağıq".

B. Məmmədov onu da bildirib ki, aksiya iştirakçıları yorulmaq bilmir: "Sülhməramlılar bizə ilk gündən dedi ki, siz yorulub davam gətirə bilməyəcəksiniz. Bizim əzmimizi gördükdə səhv dediklərini anladılar.

Həmsöhbətimiz deyir ki, bu aksiyaya qədər bəlkə də kimlərsə QHT sektorunu fəaliyyətsizlikdə günahlandıra bilərdi: "Amma bu aksiya göstərdi ki, vətəndaş cəmiyyəti institutları dövlətin, xalqın maraqlarını daim qorumağı bacarırlar. QHT təmsilçiləri lazım gələndə sözü bir yerə qoyub bir yumruq kimi birləşə, cəmiyyətimizin inkişafına, dövlət maraqlarının müdafiəsinə qalxa bilir".

O, həmçinin qeyd edib ki, geri çəkilmək fikirləri yoxdur: "Tələblərimiz yerinə yetirilməli, Ağdərədə qanunsuz istismar olunan və ekoloji mühitə böyük ziyan vuran mədənlərdə monitorinqin aparılmasına şərait yaradılmalıdır. Əks halda, günlərlə, həftələrlə aksiyamız davam edəcək".

Xatırladaq ki, dekabrın 3-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları bunu nəzərə alaraq Rusiya sülhməramlılarının rəhbərliyi ilə görüşüb ərazidə monitorinq aparmaq istəsələr də onlara əraziyə baxış keçirməyə imkan verilməyib. Ötən gündən etibarən isə eko-fəallar və QHT təmsilçiləri Laçın yolunda aksiyanı davam etdirirlər. Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti "Qızılbulaq" yatağından qanunsuz istifadə ilə bağlı məhkəməyə müraciət edə bilər. Məlumat üçün deyək ki, "Anglo-Asian Mining" Azərbaycanda 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasilatla məşğul olur. "Qızılbulaq" da müqaviləyə daxil edilən yataqlardan biridir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Şəhid polkovnikin xatirəsi yad edildi

***14 dekabr 2022-ci il tarixində şəhid polkovnik Füzuli Cavadovun xatirəsinə həsr olunmuş tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, Zirə Mədəniyyət Mərkəzi EKO-PARK-da keçirilən tədbirdə Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, şəhid Füzuli Cavadovun ailə üzvləri, hüquq-mühafizə orqanlarının və rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər və məktəblilər iştirak edib. Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi olub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə canını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Elşən Salahov şanlı zəfər yolundan danışaraq, vətən uğrunda canlarını fəda edən şəhidlərimizin hər zaman qəlbimizdə əbədi yaşayacağını, onların adlarının daim uca tutulacağını vurğulayıb.

Şair İlqar Fəhmi polkovnik Füzuli Cavadovun keçdiyi həyat yolundan, vətənə xidmətindən danışaraq, onun şeirə, poeziyaya olan sevgisini vurğulayıb. Sonra tədbirdə məclisi-üns təşkil olunub və kəndin ziyalıları tərəfindən şeirlər səsləndirilib.

Tədbir Füzuli Cavadovun xatirəsinə həsr olunmuş "Komandir" adlı sənədli filmin nümayişi ilə davam edib. Filmdə şəhid Füzuli Cavadovun ailə üzvləri, dostları və silahdaşları onunla bağlı xatirələrini bölüşüblər.

Sonda filmin yaradıcı heyəti - ssenari müəllifi Ülviyyə Tahirqızı, rejissoru Hüseyn Kazımov və redaktoru İlqar Rəsul filmin ərsəyə gəlməsindən danışaraq bu işdə onlara dəstək olan hər kəsə öz təşəkkürlərini bildiriblər.

***Hüseyn***

# "İmtahandan keçən şəxs uşaqlarla dil tapa bilmir" - Deputat

***"Bir çox ölkələrdə sovet dövründə təhsil alan müəllimlərin hamısı işdən kənarlaşdırılıb".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "Dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirilən ictimai dinləmədə deputat Hicran Hüseynova deyib.

"Onlar yeni dönəmə uyğun deyil, bizdə isə bu edilməyib. Bu gün imtahandan keçən şəxs uşaqlarla dil tapa bilmir. Bundan başqa təcrübəli müəllimlərimiz də çox azdır. Onların üzərində işləmək lazımdır. Bu gün Eynşteynə də desən ki, get testdən keç, heç birindən keçə bilməz. Amma müəllim öz üzərində çalışmalıdır, indiki uşaqlar bir barmağı ilə kompüterdən bütün informasiyanı ala bilir. Ona görə qarşısına keçdiyi autoriyadan geri qalmamalıdır", - deyə deputat çıxışında vurğulayıb.



# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il dekabrın 18-də inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı və dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı keçiriləcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahana qeydiyyat noyabrın 18-dən 6 dekabr saat 23:59-dək aparılıb və bu müddət ərzində 2500 namizəd qeydiyyatdan keçib.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır və 3 saat davam edir. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahan BB vəzifə qrupuna aid olan vəzifələr üzrə imtahan kağız daşıyıcılar vasitəsilə keçiriləcək. Bu imtahanda iştirak edəcək namizədlər verilən linkə daxil olub "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsində imtahan yeri, binası, imtahana gəlməli olan vaxt və digər zəruri məlumatlar göstərilib. İmtahan saat 11:00-da başlanır və 2 saat 30 dəqiqə davam edir. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmır.

Namizəd imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidir.

Digər vəzifə qrupları (AB, AC, BA) üzrə olan imtahanlar isə kompüter vasitəsilə DİM-in Bakı şəhəri, Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 (8 Noyabr metrostansiyasının yanı) ünvanında yerləşən binasında keçiriləcək. Kompüter vasitəsilə ilə keçirilən imtahanda buraxılış vərəqəsinə ehtiyac yoxdur. Həmin namizədlər şəxsiyyətini təsdiq edən sənədin əslini təqdim etməlidirlər. Bu imtahan saat 10:00-da başlanır. Namizədlər saat 09:00-dan gec olmayaraq imtahan binasının önündə olmalıdırlar. İmtahanın davametmə müddəti 2 saat 30 dəqiqədir.

Fəaliyyətin davam etdirilməsi üzrə imtahanda iştirak etmək üçün AB qrupu üzrə 6, AC qrupu üzrə 4, BA qrupu üzrə 53, BB qrupu üzrə isə 143 olmaqla, ümumilikdə 206 namizəd qeydiyyatdan keçib.

Qeyd edək ki, imtahanının keçirilməsi üçün ümumilikdə, 31 imtahan rəhbəri, 10 ümumi imtahan rəhbəri, 229 nəzarətçi müəllim, 21 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Bu halda pensiya yaşı azaldıla bilər

***Pensiya yaşının azaldılması Azərbaycanda xeyli müddətdir ki, müzakirə olunan əsas mövzulardan biridir. Son bir neçə ildə isə bu mövzu Milli Məclisdə də yol tapıb.***

"Qafqazinfo"nun məlumatına görə, bir neçə dəfə pensiya yaşının azaldılması ilə bağlı çıxış edən deputat Qüdrət Həsənquliyev bir müddət əvvəl bildirib ki, Azərbaycanda kişilərin 47 faizi 65 yaşına çatmadan, yəni pensiya almadan ölürlər. Maliyyə naziri Samir Şərifov isə bu fikrin yanlış olduğunu, 2021-ci ildə dünyasını dəyişən 18 min 922 nəfərin və ya 47 faizinin 65 yaşa qədər kişilər olduğunu vurğulayıb.

Bəs, Azərbaycanda pensiya yaşı reallığı nə dərəcədə əks etdirir?

"Əmək pensiyaları haqqında" qanuna 2017-ci ildə edilən dəyişikliyə görə kişilərin pensiyaya çıxma yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay nəzərdə tutulub. Bununla da kişi və qadınların pensiyaya çıxma yaşı eyni - 65 olacaq. Artıq kişilərlə bağlı bu proses ötən il yekunlaşıb və onlar bu yaşda pensiyaya çıxırlar. Qadınlarda isə bu proses 2027-ci ildə başa çatacaq. Dəyişikliyə qədər kişilər üçün pensiya yaşı 63 yaş, qadınlarda isə 60 idi.

Qeyd edək ki, qanunvericiliyə görə Azərbaycanda gözlənilən pensiya ödənişi müddəti 12 ildir. Yəni, hər bir pensiyaçının orta hesabla 12 il və ya 144 ay ödəniş alacağı nəzərdə tutulur. Bu da o deməkdir ki, 65 yaşında pensiyaya çıxmış şəxs 77 yaşına qədər ömür sürməlidir ki, pensiya kapitalında topladığı vəsaiti tam ala bilsin.

Rəsmi statistikaya nəzər salanda isə məlum olur ki, Azərbaycanda orta ömür müddəti azalmaqdadır. Əgər pensiya yaşının artırılması ilə bağlı qanunvericiliyə dəyişiklik ilində - 2017-ci ildə ölkədə orta ömür 75,4 il olmuşdusa, ötən il bu göstərici 73,6 ilə enib. Orta ömür müddətini cinslərə bölsək, qadınlarda bu göstərici bir qədər yüksək - 75,9 il olsa, da kişilərdə aşağıdır - 71,3 ildir. Müqayisə üçün deyək ki, 2017-ci ildə kişilərin orta ömrü 73,1 il, qadınların isə 77,8 il olmuşdu.

Məsələyə şəhər və kənd yerləri üzrə yanaşsaq, vəziyyət bir qədər də dəyişir. Çünki şəhər yerlərində orta ömür müddəti daha aşağıdır. Təkcə ötən il şəhərlərdə orta ömür 73,1 il, o cümlədən kişilərdə 70,4 il, qadınlarda 75,1 il təşkil edib. Kənd yerlərində isə orta ömür müddəti 74,7 il, o cümlədən kişilərdə 72,4 il, qadınlarda 76,8 il olub.

2017-ci ildə şəhərlər üzrə orta ömür 74,9 il, o cümlədən kişilərdə 72,6 il, qadınlarda 77,2 il olub. Kənd yerləri üzrə orta ömür 76 il, o cümlədən kişilərdə 73,7 il, qadınlarda 78,3 il təşkil edib.

İndi isə qayıdaq kişilərin 47 faizinin pensiya almadan dünyalarını dəyişmələri iddiasına. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda 65 yaşınadək ölənlərin sayı 30 544 nəfər olub ki, bunun da 18 922 nəfəri və ya 61,9 faizini kişilər təşkil edib. Ötən il ölən kişilərin 47 faizinin yaşı 65-ə qədər olub. Bu, S.Şərifovun səsləndirdiyi rəqəmlə eynidir.

Rəsmi statistikaya görə, ötən il dünyasını dəyişənlərin 27 362 nəfəri əmək qabiliyyətli olub. Bunun da 18 592 nəfəri və ya 67,9 faizi kişi olub. Əmək qabiliyyətli dedikdə, bu, 2021-ci ildə kişilər üçün 15-64,5 yaş, qadınlar üçün 15-61,5 yaş nəzərdə tutulub. Ötən il ölkə üzrə ümumilikdə 40 261 nəfər kişi dünyasını dəyişib. Bu da o deməkdir ki, ötən il ölən kişilərin 46,2 faizi ümumiyyətlə pensiya almayıblar.

Ancaq bu, ən yüksək göstərici də deyil. Belə ki, 2020-ci ildə ölən kişilərin 48,1 faizi, 2019-cu ildə 62,1 faizi, 2018-ci ildə 58,4 faizi, 2017-ci ildə 58,7 faizi pensiya almayıblar. Ümumilikdə isə hər iki cins üzrə ölənlərin 2017-ci ildə 31,3 faizi, 2018-ci ildə 31,2 faizi, 2019-cu ildə 33,2 faizi, 2020-ci ildə 37 faizi, 2021-ci ildə 35,6 faizi əmək qabiliyyətli yaşda olublar, yəni pensiya almayıblar.

Müşahidə olunan azalmada koronavirus pandemiyanın rolu da olsa da reallıq budur ki, orta ömür müddəti azalıb. Bu, özünü pensiya alanların sayında da göstərməkdədir. Əgər 2020-ci ilin əvvəlində ölkədə pensiyaçıların sayı 1 milyon 270,6 min nəfər olmuşdusa, cari ilin iyul ayında bu göstərici 8,8 faiz azalaraq 1 milyon 159,3 min nəfər təşkil edib. Gələn ilin əvvəlində isə 2020-ci ilin faktiki göstərici ilə müqayisədə 12 faiz azalaraq 1 milyon 118,1 minə enəcəyi proqnozlaşdırılır. Bunları nəzərə alanda, pensiya yaşının azaldılması zəruri ola bilər.



Bununla belə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin sözlərinə görə, pensiyaçıların 68 faizi 12 ildən çox pensiya alır. Bu barədə Milli Məclisdəki çıxışda bəhs edən nazir deyib ki, pensiya yaşı 65 olsa da, xüsusi kateqoriyalara edilən güzəştlər çərçivəsində effektiv pensiya yaşı 61 və 62-dir. Bu da onu deməyə əsas verir ki, pensiya almadan dünyasını dəyişənlər olduğu kimi, pensiya ödənişi müddətindən artıq pensiya alanlar və erkən yaşda pensiya hüququndan yararlananlar da az deyil.

Lakin mövzu təkcə pensiya yaşı ilə yekunlaşmır. Məsələ burasındadır ki, pensiyaların ödəmə mənbəyi olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirlərinin bir hissəsini hələ də dövlət büdcəsinin vəsaiti təşkil edir. Son illərdə əmək bazarında leqallaşma tədbirlərinin miqyasının genişlənməsinə baxmayaraq, ötən il Fondun gəlirlərinin 25,3 faizinin (1 milyard 307,4 milyon manatı) mənbəyi dövlət büdcəsi olub. Cari ildə bu göstəricinin 21,1 faizə (1 milyard 232 milyon manata) enəcəyi gözlənilsə də, gələn il 23,4 faizə (1 milyard 467,8 milyon manata) yüksələcəyi proqnozlaşdırılır. 2024-cü ildən başlayaraq isə Fondun xərclərinin artması fonunda dövlət büdcəsindən asılılığının daha da artacağı gözlənilir. Belə ki, 2024-cü ildə dövlət büdcəsinin Fondun gəlirlərindəki payı 32,5 faiz (2 milyard 616,71 milyon manat), 2025-ci ildə 30,75 faiz (2 milyard 642,14 milyon manat), 2026-cı ildə isə 28,9 faiz (2 milyard 664,39 milyon manat) olacağı proqnozlaşdırılır.

Pensiya yaşının azaldılması isə Fondun xərclərinin daha da artması deməkdir. DSMF-yə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların böyük templə artmadığı şəraitdə bu, dövlət büdcəsindən asılılığın daha da yüksəlməsinə gətirib çıxarmış olar.

# Qax, Füzuli, Beyləqan, Ağcabədi və Xocavənd rayonları suvarma suyu ilə təmin edilir



***Mil-Muğan Hidroqovşağı 100 min hektara yaxın ərazinin suvarılmasına xidmət edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 1972-ci ildən fəaliyyət göstərən Mil-Muğan Hidroqovşağı 100 min hektara yaxın ərazinin suvarılmasına xidmət edir.***

Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsinin balansında olan əkin sahələrinin suvarılması üçün Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanallarının suyundan istifadə edilir. Suvarma kanallarında mütəmadi olaraq lildən təmizlənmə işləri aparılır. Baş-Mil kanalının uzunluğu 37 km-dən artıqdır. Kanal Füzuli və Beyləqan rayonları ərazisindən keçir. Bu kanaldan Yuxarı-Mil və Yeni Xanqızı kanalları ayrılır. Yuxarı-Mil kanalı Füzuli, Xocavənd və Ağcabədi rayonlarındaəkin sahələrini suvarma suyu ilə təmin edir. Yeni Xanqızı kanalı isə Beyləqan və Ağcabədi rayonlarına xidmət edir.

Mil-Muğan Hidroqovşağı üzərində suyu ərazilərə tam çatdırmaq üçün 6 ədəd seqmentvari qapı var. Bundan başqa Hidroqovşaqdan ayrılan suyun enerjisindən Füzuli Su Elektrik Stansiyasının fəaliyyətində də istifadə olunur. Bundan başqa bu ildən etibarən Mil-Muğan Hidroqovşağı istismarı İdarəsinin balansında olan kanallarda elektron su ölçmə cihazları quraşdırılıb. Artıq bu cihazlar vasitəsi ilə suyun dəqiq miqdarını ölçmək mümkün olacaq.

Qeyd edək ki, Baş Mil kanalından Füzuli, Beyləqan, Ağcabədi və Xocavənd rayonları suvarma suyu ilə təmin edilir.

Qaxda torpaq kanal beton üzlüyə alınır. Kürmük çayında bənd tikilir. Dilqəm Şərifov bildirib ki, son illər Qax rayonunda meliorativ tədbirlər sürətlə davam edir. Bu işlərə əsasən suvarma kanallarının lildən təmizlənməsi, beton üzlüyə alınması, çay məcralarının təmizlənməsi və daş-beton bəndlərin tikilməsidir. Hazırda Qax rayonunda hər üç istiqamətdə bu işlərin görülməsi həyata keçirilir. Əvvəllər torpaq məcralı olan Qıpçaq kanalının 750 metrinin beton üzlüyə alınması ilə su itkisi minimuma endirilir. Bununla da əkin sahələrinə verilən suvarma suyu normalara uyğun çatdırılır. Hazırda Qax Suvarma Sistemləri İdarəsi tərəfindən rayonun Qıpçaq kəndi ərazisində bu işlər davam etdirilir. Əsaslı təmir işləri əkin sahələrinin suvarma suyu ilə tam təmin olunması məqsədi ilə aparılır. Əvvəlki illərdə əkin sahələrinin suvarılmasında çətinliklər yaranırdısa artıq bu problem aradan qaldırılıb.

Qax Suvarma Sistemləri İdarəsi tərəfindən rayon ərazisində suvarmanın yaxşılaşdırılması istiqamətində görülən işlərlə paralel olaraq selə qarşı mübarizə tədbirləri də həyata keçirilir. Belə ki, zaman-zaman sel gətirən Kürmük çayında məcra təmizləmə, o cümlədən daş beton bənd tikilir. Bununla da ətraf ərazilər yarana biləcək sel təhlükəsindən qorunmuş olur.

Qeyd edək ki, Qax Suvarma Sistemləri İdarəsi tərəfindən cari ildə 650 kub daş beton, 750 metr uzunluqda Qıpçaq kanalının beton üzlüyə alınması, 200 min kub metrdən artıq kanallarda lildən təmizləmə və 300 min kub metrdən artıq məcra təmizləmə işləri görülüb. Bundan başqa bir ədəd artezian quyusu əsaslı təmir olunub, digər quyularda isə cari təmir işləri aparılıb.

***Hüseyn İsgəndərov***



# Rövşənin Vətən sevgisi

***44 günlük İkinci Qarabağ müharibəsində torpağa qan töküb onu Vətən edən igidlərdən söz düşəndə Rövşən Qardaşxan oğlu Ramazanovun adı da böyük iftixarla çəkilir. Astara rayonunun Burzubənd kəndində dünyaya göz açan elin qəhrəman oğlu özünü dərk edib doğma Azərbaycanın müqəddəsliyinə tapınıb ona sevdalandığı gündən qəlbi düşmən tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə alışıb-yanır. Elə onu 25 yaşında şəhidlik zirvəsinə aparan yol bu ilahi sevgidən yaranır. Qəhrəmanlığı ilə dastan yazan, böyük bir xalqın könlünə köç edən Rövşən Ramazanovu ölkə başçısı da "Vətən uğrunda", Xocavəndin, Cəbrayılın və Füzulinin azadlığına görə medallarla təltif edir.***

Bəli, müqəddəs bir ailə ocağında boy atan, qəlb dünyası sevdalı olan, həyatının dəyərini el-obaya təmənnasız xidmətdə görən Rövşən orta təhsilini başa vurub, 2013-cü ilin iyul ayında Milli Ordu sıralarına yola düşür. Cəbhə bölgəsində Vətənə olan borcunu ləyaqətlə verir, onu düşmən təxribatından göz-bəbəyi kimi qoruyur, yeri gələndə yolunda canından keçməyə hazır olur. Vətənə, torpağa məhəbbəti, eləcə mərdliyi, qəhrəmanlığı əsgər yoldaşlarına nümunə göstərilir. Təlimlərdə fəal iştirak edir, həqiqi hərbi xidməti dövründə PK silahının "dilinə" mükəmməl yiyələnir. 2015-ci ilin yanvar ayında xidmətini başa vuraraq evinə geri qayıdır. Ağıllı , nəcib, humanist təbiətli gəncin yağıya nifrəti bir az belə olsun azalmır. Yalnız ona qan qusdurub qisas almağı düşünür.

Rövşən Vətən müharibəsinə könüllü qoşulur. Tez də erməni dığaların kabusuna çevrilir. Astaranın igid oğlu yağını məğlub etməklə neçə-neçə ağır sınaqlardan üzüağ çıxır, döyüşdən-döyüşə bərkiyir. Füzulinin, Cəbrayılın, Xocavəndin azad olmasında sözün əsl mənasında tarix yazır. Hər üç rayonda Azərbaycanın qələbə bayrağı ucalananda zəfərimizə tam inanır. Rövşənin son döyüşü noyabrın 1-də olur. Şiddətli döyüş zamanı düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etməklə ondan qisasını ürəyincə aldıqdan sonra şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşur...

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Qırmızı ürəklər" Fondunun 2 yaşı tamam oldu

***Çoxsaylı xeyirxah əməllər həyata keçirən, sosial əhəmiyyətli layihələr icra edən, indiyədək minlərlə insana maddi və mənəvi dəstək göstərən, ölkənin bütün regionlarını əhatə edən "Qırmızı Ürəklər" ("Red Hearts") Fondunun rəsmi olaraq fəaliyyətə başlamasının 2 ili tamam olub.***

"Unikal" xəbər verir ki, bununla bağlı 10 dekabr 2022-ci il tarixində "Atelier 61 Events Hall"da tədbir keçirilib.

Tədbirdə PAŞA Holdinqin və Kapital Bank-ın nümayəndələri, donorlar, fondun üzvləri, əməkdaşları və könüllüləri iştirak edirdi. Tədbirdə çıxış edən "Qırmızı Ürəklər" Fondunun prezidenti Sevda Haqverdiyeva fondun fəaliyyət istiqamətləri, gördüyü işlər, hesabatlar və gələcək planlar barədə ətraflı məlumat verdi. Həmçinin fondun ən fəal üzvləri il ərzində göstərdikləri fəaliyyətlərə görə xüsusi sertifikatlarla təltif edildi.




İndiyədək fond tərəfindən müəyyənləşdirilən 3 əsas istiqamət (cəmiyyət, ətraf mühit, heyvanlar) üzrə müxtəlif sosial layihələr icra edilib. Həssas qrupdan olan uşaq evlərində və sığınacaqlarda seminarlar, təlimlər, aztəminatlı ailələrə yardım aksiyaları, təhsil təqaüdü proqramı, sağlamlıqla bağlı müxtəlif maarifləndirici layihələr, regionlarda kütləvi ağacəkmə aksiyaları, sahilyani ərazilərdə təmizlik işləri, heyvan sığınacaqlarında dəstək aksiyaları keçirilib. "Qırmızı Ürəklər" Fonduna 2022-ci il ərzində 1041 donor tərəfindən, 200-dən artıq könüllülərin iştirakı ilə 700 min manata yaxın məbləğində vəsait 4028 benefesiara ianələr şəklində dəstək göstərilib.

Tədbirin rəsmi hissəsi bitdikdən sonra populyar müğənnilər Murad Arif və Samira çıxış edərək "Qırmızı Ürəklər"i ad günü münasibətilə təbrik etdi.

"Qırmızı Ürəklər" Fondu 2019-cu ildə Kapital Bank-ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. Hazırda Fond kimi fəaliyyətini davam edən təşkilat, əsasən uşaq evlərinə, sığınacaqlara və digər ehtiyacı olanlara yardımlar edir. https://redhearts.az saytına daxil olmaqla fondun fəaliyyəti, gördüyü xeyirxah işlər, gələcək planları və digər maraqlı məlumatları əldə etmək, həmçinin "Cəmiyyət" bölməsinə daxil olub ianələr etmək olar.

# Şəhidin xatirə lövhəsini oğurlayanlar tutuldu

***Noyabrın 29-na keçən gecə Sumqayıt şəhəri 1-ci mikrorayondakı binaların birində şəhid şəkli olan lövhənin qeyri-aşkar şəraitdə sökülərək oğurlanması barədə polisə məlumat daxil olub.***

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, Sumqayıt ŞPİ 4-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən şəhər sakini, əvvəllər də oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş Emin Abdullayev və Abşeron rayon sakini Rövşən Qasımov müəyyən olunaraq saxlanılıblar.

Araşdırma aparılır.

# Aİ ölkələri bununla bağlı yenə razılaşa bilmədilər

***Avropa İttifaqına üzv ölkələr Rusiyaya qarşı doqquzuncu sanksiyalar paketi ilə bağlı ikinci dəfə razılığa gələ bilməyiblər.***

”Unikal” xəbər verir ki, bu barədə ”Reuters” agentliyi məlumat dərc edib.

”Ölkələr çərşənbə günü danışıqlarda razılaşmaya yaxınlaşıb, lakin Polşa və bəzi digər ölkələrin hələ də etirazları var”, - diplomatlardan biri deyib.

# Conson ictimai çıxışlarından 1,2 milyon dollar qazanıb



***Böyük Britaniyanın keçmiş baş naziri Boris Conson vəzifəsindən getdikdən sonra xeyli miqdarda pul qazanıb.***

”Unikal” xarici mətbuata istinadən xəbər verir ki, istefa verdikdən sonrakı müddətdə siyasətçinin gəliri ictimai çıxışlar sayəsində 1 milyon funt-sterlinqdən (1,2 milyon dollardan çox) çox olub.

Belə ki, noyabrda Conson üç çıxışına görə 750 min funt-sterlinqdən (932,6 min dollar) çox qonorar alıb. Oktyabr ayında isə o, Sığorta Agentləri və Brokerləri Şurasının konfransında yarım saatlıq çıxışına görə təxminən 276 min funt-sterlinq (343,2 dollar) qazanıb.

# Tayvanda güclü zəlzələ oldu

***Tayvanda 6,2 bal gücündə zəlzələ baş verib.***

”Unikal” xəbər verir ki, zəlzələ Tayvan adasının şərq sahilində, Hualian şəhərindən 29,1 kilometr aralıda qeydə alınıb.

Dənizin dibində 5,7 kilometr dərinlikdə baş verən 6,2 bal gücündə zəlzələnin yaratdığı təkan Taypey və şimaldakı ətraflarında hiss olunub.

Zəlzələ nəticəsində insan tələfatı və maddi tələfat barədə hələlik məlumat verilmir.

***Seymur Əli***

# Ermənistanın iki nazirliyində yoxlamalar aparılır

***Ermənistanın Dövlət Nəzarət Xidməti Xarici İşlər və İqtisadiyyat nazirliklərində yoxlamalara başlayıb.***




”Unikal” ”Joqovurd” qəzetinə istinadən xəbər verir ki, bütün dövlət strukturlarına, məmurlara təhvil verilən avtomobillər yoxlanılır. Məmurların avtomobillərinin katalizatorlarının oğurlanaraq satıldığına dair şübhələr var.

# Bayden yeni pandemiyanın anonsunu verdi

***Bəşəriyyəti daha bir pandemiya (Clovida) gözləyir.***

”Unikal” xəbər verir ki, bu barədə ABŞ prezidenti Cozef Bayden dekabrın 13-dən 15-dək Vaşinqtonda keçirilən ABŞ-Afrika sammitində çıxışı zamanı danışıb.

”Və biz COVID-19-a son qoymaq üçün çalışsaq da, səhiyyə sistemlərini və institutlarını gücləndirməyə davam edirik və növbəti pandemiya da daxil olmaqla sağlamlıq problemləri ilə üzləşməyə hazır olmaq, səhiyyə xidmətlərinə universal çıxışı təmin etmək üçün səylər göstəririk. Bu, şübhəsiz ki, baş verəcək”, - Amerika prezidenti bildirib.

O, ABŞ və Afrika ölkələri arasında, o cümlədən PEPFAR proqramı çərçivəsində QİÇS-ə qarşı mübarizə və malyariyaya qarşı əməkdaşlığı da qeyd edib.

***Ağarza Elçinoğlu***

# "Mənə verilən cəzanı uğurumun mükafatı kimi görürəm" - İmamoğlu

***”Mənə verilən bu mənasız və qanunsuz cəzanı uğurumun mükafatı olaraq görürəm”.***



”Unikal” xəbər verir ki, bunu İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri Ekrem İmamoğlu deyib. ”Bizdə bəzən heç bir uğur cəzasız qalmır. Belə bir baxış var. Mənə verilən bu mənasız və qanunsuz cəzanı uğurumun mükafatı kimi görürəm. İnsan başını önə əyəcək bir iş görəndə cümlələr boğazında ilişib qalır. Prezidentimizin hüzurunda birinci gün olduğu kimi, başımı dik tutub deyirəm. 2023-cü il çox yaxşı bir il olacaq, çox çalışacağıq, işimizi İstanbuldan etməyə davam edəcəyik. Biz işdəyik. Ölkəmiz üçün 2023-cü il bayram kimi bir il olacaq”, - İmamoğlu bildirib.

Qeyd edək ki, Türkiyə məhkəməsi İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri Əkrəm İmamoğlu barəsində 2 il 7 ay 15 gün həbs qərarı çıxarıb.

***Ağarza Elçinoğlu***

# Türkiyədə 6 yaşında qızını ərə verən vəqf lideri belə saxlanıldı

***Türkiyədə 18 il əvvəl 6 yaşlı qızını ərə verən Hiranur Vəqfinin lideri Yusuf Ziya Gümüşeli polis tərəfindən saxlanılıb.***

”Unikal” xəbər verir ki, bu barədə İstanbul şəhər Prokurorluğu məlumat yayıb. Bildirilir ki, H.K.G. adlı qadının şikayəti üzrə həyata keçirilən əməliyyat işi nəticəsində ata Yusuf Ziya Gümüşeli barəsində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, H.K.G. adlı qadın 6 yaşında olarkən 29 yaşlı Kadir İstekli adlı şəxsə ərə verilib. Onun sözlərinə görə, Kadirlə onun arasında dini kəbin kəsilib və həmin gündən etibarən H.G.K Kadir İstekli tərəfindən cinsi istismara məruz qalıb.

H.K.G. 13 yaşına çatdıqda nişanı, 14 yaşı olduqda isə toyu olub. Onun 18 yaşı tamam olduqda isə rəsmi nikahı baş tutub.



Bununla belə, qadın 17 yaşında ana olduğunu bildirib.

# "1991-ci ildə bir neçə cəsur komandir tapılsaydı, SSRİ dağılmazdı"

***”Xalq öz maraqlarını daha yaxşı müdafiə etsəydi, SSRİ-nin dağılmasının qarşısını almaq olardı”.***



”Unikal” xəbər verir ki, bunu Rusiya Federasiyası Kommunist Partiyasının (KPRF) sədri Gennadi Zyuqanov ”RİA Novosti”yə müsahibəsində bildirib.

Zyuqanovun fikrincə, əgər 1991-ci ildə “bir neçə cəsur komandir” tapılsaydı, “Belovejyadakı sui-qəsdçilər” və yeni Rusiyanın ilk prezidenti olmuş Boris Yeltsin həbs olunsaydı, o zaman ölkə dağılmazdı.

Onun sözlərinə görə, Sovet İttifaqının dövlət modeli inanılmaz dərəcədə uğurlu olub, çünki “190 xalqı və milləti öz bayraqları altına toplayan” ölkə “vahid dili, inancını və mədəniyyətini” məhv etməməyə nail olub.

Qeyd edək ki, dekabrın 30-da Sovet Sosialist Respublikaları İttifaqının yaranmasının 100 illiyi tamam olur.

***Gülayə Mecid***

# Ermənistanda eks-nazirə cinayət işi açıldı

***2012-2016-cı illərdə Ermənistan Mədəniyyət Naziri vəzifəsini tutmuş H.P.-ya cinayət işi açılıb.***



”Unikal” xəbər verir ki, bu barədə ”Hraparak” nəşri məlumat yayıb. Bildirilir ki, sabiq nazir dələduzluqda ittiham olunur. Belə ki, H.P “Sochocenter” SP şirkətinin təsisçilərinə və direktoruna dövlət mülkiyyətində olan “P.Çaykovski adına İrəvan Orta Musiqi Məktəbi” SNOC-un dələduzluq yolu ilə oğurlanmasında köməklik edib. Nəticədə dövlətə 100 milyon dram xüsusi külli miqdarda maddi ziyan dəyib. Hazırda Ermənistan Baş Prokurorluğunda sabiq nazirə qarşı cinayət işi açılıb. Araşdırma aparılır.

***Gülayə Mecid***

# "Formula-1": Azərbaycan Qran-prisinin biletləri satışa çıxarıldı



***Bu gün "Formula-1" üzrə 2023-cü il Azərbaycan Qran-prisi üçün bilet satışına start verilib.***

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) "early bird" erkən bilet satışına başlayıb. Azarkeşlər 20 faizlik endirim fürsətindən gələn il yanvarın 15-dək faydalana biləcəklər.

BŞH-nın Satış və Kommersiya departamentinin yeni rəhbəri Səbri Gülməlıyev bildirib ki, möhtəşəm avtoidman yarışını Azərbaycan vətəndaşları üçün daha əlçatan etmək istəyirlər: "Həmvətənlərimiz və ölkəmizin rezidentləri Bakı yarışına biletləri beynəlxalq qiymətlərlə müqayisədə 2 dəfəyədək sərfəli qiymətlərlə əldə edə biləcəklər. Bu il daha çox yerli azarkeşin F1 yarış həyəcanını yaşaması və Dənizkənarı Milli Parkda əyləncələrdən zövq alması üçün erkən bilet satışı dövründə ayaqüstü biletlər 40 manatdan 120 manatadək, tribuna biletləri 160 manatdan 690 manatadək, azyaşlılar üçün biletlər isə 110 manatdan 480 manatadək olan qiymət aralığında təklif olunacaq".

Gülməlıyevin sözlərinə görə, bilet satışa çıxarıldıqdan cəmi 9 dəqiqə sonra ilk olaraq ingiltərəli azarkeş öz yerini təmin edib.

BŞH-nın mətbuat katibi Turab Teymurov isə vurğulayıb ki, Bakıda ilk dəfə sprint yarışları da baş tutacağı üçün qürurludurlar: "Sprint mübarizəsinin baş tutacağı 6 ölkə arasında Azərbaycanın da olması sevindiricidir".

Biletləri "28 Mall", "Gənclik Mall", Heydər Əliyev Sarayı, Kiosk 1 (Azərbaycan kinoteatrı), Kiosk 2 (Nizami küçəsi), ASAN 1, ASAN 2, ASAN 3, ASAN 4 və ASAN Sumqayıtda əldə etmək olar.

Qeyd edək ki, yeddinci dəfə Bakıda təşkil olunacaq Qran-pri gələn il aprelin 28-30-da keçiriləcək. Yarış çərçivəsində ilk dəfə sprint yarışı da baş tutacaq.

# "Böyük beşlik": Oyunlara nə qədər qalıb?

***Qətərdə keçirilən DÇ-2022 finiş xəttinə yaxınlaşır.***

Apasport.az saytının məlumatına görə, cəmi iki oyuna qalan mundialda hər hansı hədəfi qalmayan azarkeşlər artıq milli çempionatların bərpasını səbirsizliklə gözləyir. Həm fanatlar, həm proqnozseverlər, həm də bukmeker kontorları daha çox "Böyük beşlik" liqalarının bərpasını gözləyir. Avropanın ən yaxşı beş çempionatı isə fərqli vaxtda bərpa ediləcək.

İngiltərə Premyer Liqasında matçların yenidən keçirilməsinə cəmi 11 gün qalıb. Fransa və İspaniyada da qarşılaşmalar bu il bərpa olunacaq.

İki liqa isə 2023-cü ili gözləyəcək. Maraqlıdır ki, çempionatı ən gec bərpa olunan ölkələrin yığmaları üçün DÇ-2022 kabusa çevrilib. İtaliya final mərhələsinə çıxa bilməyib, Almaniya qrupda qalıb.

İngiltərə Premyer Liqası - 26 dekabr

Fransa Liqa1 - 28 dekabr



İspaniya La Liqası - 29 dekabr

İtaliya A seriyası - 4 yanvar

Almaniya Bundesliqası - 20 yanvar

# Benzema DÇ-2022-nin finalında oynaya bilər

***Fransa millisinin hücumçusu Kərim Benzema DÇ-2022-nin finalında iştirak edə bilər.***

Qol.az xəbər verir ki, bu barədə AS nəşri məlumat yayıb. Madrid klubu futbolçunun Qətərə getməsinə icazə verib. Qərar Benzemanın özündən asılıdır, Madrid təmsilçisi ona mane olmayacaq.

Fransa qalib gəlsə, Kərimin digər komanda ilə birlikdə medal almaq imkanı olacaq.

Xatırladaq ki, Benzema DÇ-2022-nin başlamasına bir neçə gün qalmış zədələnərək turnirdə iştirak edə bilməyib. Didye Deşam onun yerinə futbolçu çağırmadığı üçün hücumçu Fransa millisinin ərizəsində qalır. Deşam Mərakeşlə matçdan sonra Benzemanın finalda mümkün iştirakı ilə bağlı sualı cavablandırmaqdan imtina edib.



# DÇ-da 84 il sonra ilk yaşandı

***Fransa millisi DÇ-2022-nin yarımfinal mərhələsində Mərakeş seçməsini 2:0 hesabı ilə məğlub edərək adını finala yazdırıb.***



"Unikal" xəbər verir ki, Didye Deşamın komandası 84 il sonra ardıcıl iki dəfə dünya çempionatının finalına vəsiqə qazanan ikinci Avropa komandası olub.

İlk dəfə İtaliya yığması 1934 və 1938-ci illərin mundiallarında finala yüksəlməklə bu uğura imza atıb. "Xoruzlar" isə DÇ-2018-dən sonra Qətərdəki yarışda da final həyəcanı yaşamaq hüququna yiyələniblər.

Qeyd edək ki, Fransa millisi dekabrın 18-də Bakı vaxtı ilə saat 19:00-da finalda Argentina ilə qarşılaşacaq.

# Azərbaycanlı idmançı Almaniyada qətlə yetirildi

***Almaniyada azərbaycanlı idmançı Vüqar Baxşıyev qətlə yetirilib.***

"Unikal" xəbər verir ki, bu barədə "MMA Azerbaijan" səhifəsi məlumat yayıb. Bildirilib ki, MMA döyüşçüsü Vüqar Baxşıyev Frankfurtda 40 yaşlı şəxs tərəfindən güllələnərək öldürülüb.

Qeyd edək ki, V.Baxşıyev "İnetgra Figtihing Championship" təşkilatının çempionu olub.

Hadisənin hansı şəraitdə və nə səbəbə baş verməsi məlum deyil.

# "Turan - Tovuz" - "Neftçi": Heyətlər



***Misli Premyer Liqasının 17-ci turunda bu gün keçiriləcək "Turan - Tovuz" - "Neftçi" matçı üçün heyətlər açıqlanıb.***

Komandalar saat 14:30-da başlayacaq oyuna aşağıdakı tərkibdə çıxacaqlar:

"Turan Tovuz": 1. Tərlan Əhmədli, 3. Tərlan Quliyev, 4. Şəhriyar Əliyev (k), 7. Ehtiram Şahverdiyev, 33. Eltun Turabov, 8. Şakir Seyidov, 88. Faiq Hacıyev, 30. Piruzi Marakvelidze, 17. Natan Oduva, 19. Runi Eva, 11. Ayxan Quseynov

Ehtiyat oyunçular: 85. Kamal Bayramov, 13. Mehman Hacıyev, 14. Akif Tağıyev, 60. Səbayıl Bağırov, 10. Xəyal Nəcəfov, 6. Turan Vəlizadə, 99. Veysəl Rzayev, 21. Abbas Ağazadə, 15. Vüsal Məsimov, 87. Nazim Həsənzadə, 97. Sadiq Şəfiyev, 9. İmeda Aşortiya

"Neftçi": 1. İvan Brkiç, 8. Emin Mahmudov (k), 19. Azər Salahlı, 26. Ömər Buludov, 27. Fərid Yusifli. 6. Voyislav Stankoviç, 4. Solomon Kverkveliya, 5. Kenni Sayef, 23. Ataa Caber, 24. Yusuf Laval, 77. Yeqor Boqomolski

Ehtiyat oyunçular: 30. Aqil Məmmədov, 93. Rza Cəfərov, 2. Mert Çelik, 21. İsmayıl Zülfüqarlı, 20. Vüsal Əsgərov, 84. Hüseyn Babayev, 51. David Orucov, 42. Xaqan Məmmədov, 91. Ağadadaş Salyanskiy, 92. Ömər Qurbanov, 18. Vato Arveladze, 16. Gilyerme Pato

# Messi: "Bir addımımız qaldı"

***Argentina millisinin kapitanı Lionel Messi yeni rekorduna münasibət bildirib.***

Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu dünya çempionatlarında vurduğu qolların sayını 11-ə yüksəldib. Bununla da o, Qabriel Batistutanı (10 qol) geridə qoyaraq mundiallarda ən çox qol vuran Argentina millisinin üzvü olub.

Messi yeni rekordu ilə bağlı deyib: "Bütün bunlar yaxşıdır, ancaq komandanın uğuru vacibdir, bu, ən gözəli olardı. Dünya çempionatının kubokunu qazanmaq üçün bir addımımız qalıb. Biz çox mübarizə apardıq və indi bütün gücümüzü verəcəyik ki, bu dəfə uğur qazanaq".

Qeyd edək ki, Argentina finalda dekabrın 18-i Fransa ilə qarşılaşacaq.